# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.543**

**Cild: 2  Sayı: 10**

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.543**

**Volume: 2  Issue: 10**

**Bakı – Baku**
**2022**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan
on 04.07.2019.
Registration No. 4243

## Beynəlxalq indekslər / International indices

e-ISSN: 2789-6919
DOI: 10.36719

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
AZ1073, Baku,
Matbuat avenue, 529,
“Azerbaijan” Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**E-mail**
tedqiqat1707@aem.az

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**,
Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

**Redaktor**

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**,
AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
m__ilham63@mail.ru

**Editor**

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**,
ANAS Institute of Literature / Azerbaijan
m_ilham63@mail.ru

**Redaktor köməkçisi**

**Magistrant Aytən XƏLİLOVA**,
Azərbaycan Elm Mərkəzi / Azərbaycan
aytankhalilova@bk.ru

**Assistant editor**

**Master Aytan KHALILOVA**,
Azerbaijan Science Center / Azerbaijan
aytankhalilova@bk.ru

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Abbas ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Language editors**

**Prof. Dr. Abbas ABBASOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Şəhla SƏMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Memarlıq və İnşaat Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

### Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Khatira HUSEYINOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA**, Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shafag ABDULLAYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan JABRAYILOV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan University of Architecture and Construction / Azerbaijan
**Dr. Fuad RZAYEV**, Institute of Zoology of ANAS / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK**, Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Nataly MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Elza MOLLAYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan
**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerikan Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖEA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

### Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan

**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Unversiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərid NAĞIYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna

### Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Səadət KƏRİMİ**, Kral Texnologiya İnstitutu / İsveç

### Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan

## EDITORIAL BOARD

### Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK**, Kazakh Language Academy / Kazakhstan
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, ASU Institute of Uzbek Language, Literature and Folklore / Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilkin GULUSOY**, Kafkas University / Turkey
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

## Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Nikolay BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGHAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Farid NAGHIYEV,** Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Saadat KARIMI**, Royal İnstitute of Technology / Sweden

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCE

DOI: https://doi.org/10.36719/2789-6919/14/7-10

**Maarifə Nuh qızı Manafova**
Mingəçevir Dövlət Universitetinin
filologiya üzrə fəlsəfə doktoru
manafov49@mail.ru

# MƏHƏMMƏD YUSİF ŞİRVANİNİN "TİBBNAMƏ" ƏSƏRİNİN ÜSLUBU

**Xülasə**

Məqalədə müəllifi bəlli olmayan, XVIII əsrdə üzü Şamaxılı həkim-alim Məhəmməd Yusif Şirvani tərəfindən köçürülmüş və bu günümüzə kimi gəlib çıxmış "Tibbnamə"nin (hikmət kitabının; xalq təbabəti) dil və üslub xüsusiyyətləri təhlil olunur. "Tibbnamə"nin dilində analitizmin qalıqları mövcuddur.

"Tibbnamə" əski türk dilində yaradılmış orta əsr tibb əsərləri arasında çox mühüm yer tutur. Bu tipli əsərlər vasitəsilə dövr barədə tarixi bilgilər, həmin dövrün dil və üslub normasındakı inkişaf və təkamülünü görürük. Ədəbi dilin ortaçağ dövrünün dil və üslub mənzərəsini ifadə edən bu əsərin üslub əlamətləri öyrənilir.

***Açar sözlər:*** *təbabət elmi, "Tibbnamə", dil və üslub, folklor-danışıq üslubi, kitab-klassik üslub*

**Maarifa Nuh Manafova**
Mingachevir State University
Phd in Philology
manafov49@mail.ru

## The style of Mohammed Yusif Sirvani's work "Tibbnama"

**Abstract**

The article analyzes the linguistic and stylistic features of the "Tibbnama" (book of wisdom; folk medicine), whose author is unknown, copied in the 18th century by the physician-scientist Muhammad Yusif Shirvani from Shamakhi, and which has survived to this day. There are remnants of analyticism in the language of Tibbnama.

"Tibbname" occupies a very important place among the medieval medical works created in the old Turkish language. Through these types of works, we can see the historical information about the period, the development and evolution of the language and style norms of that period. The stylistic features of this work, which expresses the language and style landscape of the medieval period of the literary language, are studied.

***Keywords:*** *medical science, "Tibbname", language and style, folklore style of communication, classical book style*

## Giriş

XVI yüzildə elmə, maarifə, savada yüksək qiymət verilmiş, demək olar ki, elm cəmiyyətə xeyir vermişdir. Müşahidələr göstərir ki, bu dövrdə digər elmlər kimi, tibbi elmlərin də inkişafına xüsusi diqqət yetirilmişdir. Məhəmməd Yusif Şirvani (XVIII əsr) təsdiq edirdi ki, insanların sağlamlığı və uzunömürlüyü onların yaşadıqları evlərin düzgün qurulmasından asılıdır.

Dövrün alimləri, həkimləri müxtəlif müalicə üsullarına həsr edilmiş elmi əsərlər yazırdılar.

Ortaçağ şərq təbabətinin nədən ibarət olduğu, müəllifi hələ də bilinməyən və XVIII yüzildə üzü məşhur həkim-alim Məhəmməd Yusif Şirvani tərəfindən köçürülmüş "Tibbnamə" əsərində öz əksini tapa bilmişdir. Məhəmməd Yusif Şirvani həmin əsərə müqəddimə, şərh və izahatlar da yazmışdır. XVII əsrin sonunda, XVIII əsrin əvvəllərində yaşamış Azərbaycanın məşhur aliminin

həmin xidməti sayəsində sözügedən kitab bu günkü günümüzə gəlib çatmışdır. “Tibbnamə” əski türk dilində yaradılmış orta əsr tibb əsərləri arasında çox mühüm yer tutur. Həmin əsərdə o zaman məlum olmuş əksəriyyət xəstəliklərinin müalicəsindən bəhs edilir.

“Tibbnamə”nin mətnləri istər zehni dərketmə, istərsə də bədii-estetik təsir cəhətdən çox qiymətlidir. Tibbin müxtəlif sahələrinə dair mühakimələrdə yayğın və uzunçuluğa yol verilməmişdir. Gərəkli sözlər, terminoloji vahidlər, cümlələr, eləcə də mətnlər dəqiq seçilmişdir. Naməlum müəllif mətləbin düzgün və aydın izahı üçün cümlədəki söz sırasını, əsasən, qrammatik qanunlar və fikrin məntiqi inkişafı əsasında qurmuş, tibbə dair elmi reallıqların sadə anlaşıqlı sözlərlə ifadəsi üçün böyük uğur qazanmışdır.

Leksik-semantik səviyyədə bəzən dil və üslub normalarının pozulduğu hallar az da olsa müşahidə olunur. Güman ki, orijinallıq mətnin köçürülmə prosesində qismən də olsa itmişdir.

O dövrün elmi üslubu haqqında A.Əlizadə yazır: “Elmin ayrıca bir dili yoxdur. Elmi əsərlər də xalqın istifadə etdiyi dildə yazılır. Ancaq elmi əsərləri bədii əsərlərdən fərqləndirən onun leksik tərkibindəki terminlərin çoxluğudur” (Əlizadə, 1988:85-86).

Doğrudan da, bu əsər o zaman “xalqın istifadə etdiyi bir dildə yazılmışdır”. O dövr türkcənin bir qədər ərəb və fars dillərindən üstünlüyü ilə fərqlənirdi.

Bu sahənin tanınmış tədqiqatçısı Fərid Ələkbərli yazırdı ki, “bitki və heyvanların qədim adları müasir adlarla üst-üstə gəlmir və çox vaxt tədqiqatçıya heç nə demir”. Digər hallarda isə müxtəlif orta əsr müəllifləri eyni ad altında müxtəlif bitkiləri nəzərdə tuturlar. Onu da bilmək lazımdır ki, müxtəlif dövrlərdə və eləcə də müxtəlif ölkə və əyalətlərdə eyni bitki adları müxtəlif məna daşıyırdı. Ona görə də orta əsr tibb əlyazmalarının tərcüməsi və araşdırılması həddindən artıq ciddi tədqiqat işi tələb edir. Orta əsrlər zamanı Azərbaycanda tibb və əczaçılıq sahəsində kitablar ərəb əlifbası ilə ərəbcə, farsca, Azərbaycan türkcəsində, yaxud osmanlıca yazılırdı. Məsələn, tibb və əczaçılıq üzrə əsgi əlyazmalarda, əsərlərdə 27 dil və dialektdə, həmçinin ərəb, fars, türk, qədim yunan, arami (qədim Suriya), qibti (qədim Misir), bərbər, hind, sanskrit, çin və başqa dillərdə tibbi maddələrin (bitkilərin, heyvanların, mineralların) adlarına rast gəlmək olur” (Ələkbərli, 2013:5).

“Tibbnamə”nin üslubu həqiqi elmə xas olan bütün xüsusiyyətləri özündə birləşdirir. Bu əsər orta əsrlər zamanı Azərbaycanda tibb, əczaçılıq və magiya (cadugərlik, sehr, ovsunçuluq) alimləri arasında qarşılıqlı əlaqənin əksi kimi də qiymətlidir. “Tibbnamə”nin əlyazmaları, təkcə əczaçılıq elmi deyil, hər şeydən öncə, nücum və magiya üzrə traktatlardan-mətnlərdən ibarətdir.

İlk tibbi biliklər, necə deyərlər, Azərbaycanda elmi üslubu formalaşdırırdı. İlk tibbi biliklərin meydana gəlməsi isə arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur. F.Ələkbərlinin fikrincə, “bir neçə min il bundan əvvəl Azərbaycanda yaşayan insanlar artıq tibbi biliklərə malik idilər. Çalağantəpədə aparılmış arxeoloji qazantılar nəticəsində tapılmış insan kəlləsinin arxa tərəfində oval formada bir dəlik aşkar edilmişdir. Mütəxəssislərin fikrincə, bu, eramızdan əvvəl VI-V minilliklərdə aparılmış cərrahiyyə əməliyyatının izləridir...” (Ələkbərli, 2013:1).

Orta əsrlərdə ədəbi dildə artıq funksional üslublar müəyyənləşir. Əvvəlki yüzillərdə nəzəri cəlb edən tibb elminə dair üslubi rüşeymlər (digər elmi sahələrdə də) artıq sözügedən dövrdə aydın, müəyyən vəzifəli təfərrüatlara çevrilir. Akademik T.Hacıyev məhz bu dövrdə üslubların differensiallaşdığını göstərir. “Bununla da ədəbi dil bütöv əlamətləri ilə fəaliyyətə başlayır. Yəni aydındır ki, ədəbi dil xalq dilindən seçilən leksik, fonetik, qrammatik faktların vahid orfoqrafik və orfoepik tələblər çərçivəsində təzahürüdür”. “Dibaçə”lər elmi üslubun ilk nümunəsi kimi görünür. Elmi məzmunlu əsərlərdə üslub formalaşır. XIII-XVI əsrləri nəzərdə tutan akademik məzmunu nəzərə alınmaqla həmin mərhələdə üç üslub arasında elmi üslubun da təşəkkül tapdığını əsaslandırır. “Elmi üslubu bədii üslubdan fərqləndirən ancaq müəyyən terminoloji vahidlərin iştirakıdır” (Hacıyev, 2012:250).

Həmin dövrdə elm üslub iki cür təzahür edirdi: 1) klassik kitab dili biçimində; 2) folklor-danışıq dili biçimində. Birinci təzahür formasında elmi dil kimi ərəb söz və ifadələrinin çox işləndiyi və elmi terminlərin, bir qayda olaraq, ərəb sözlərindən ibarət olduğu “Tibbnamə”də də həddən artıq genişdir. Bu, həmin dövrü səciyyələndirirdi.

Elmi üslubun folklor-danışıq dilinin örnəyi olan “Tibbnamə”də tibbin, əczaçılığın müxtəlif sahələri ilə əlaqədar işlənmiş sözlər isə türk mənşəlidir.

Hər iki qəbildən olan terminologiya (XIV əsrin əvvəllərindəki lüğətlər də) elmi üslubun inkişafı

üçün dil imkanlarının məhdud olmadığını göstərir. Hər iki üslubun kəsişdiyi nöqtədə “Tibbnamə”dəki ərəb, fars və başqa alınmaların türk dilində məna uyğunlaşması onların türk leksik-morfoloji göstəriciləri ilə söz yaradıcılığında iştirak etməsində də görünür.

Türk mənşəli müəyyən qism sözlərin müasir dövrdə istifadədən qaldığı üçün onlar arxaizmlər sırasına keçdiyini göstərir.

“Tibbnamə”nin dilində xeyli sayda frazeologizmlər vardır ki, bunların bir çoxu müasir dildəkinin eyni olsa, da, müəyyən qismi tarixiliyi ilə fərqlənir. Məs.: qanı coşmaq, qanı qaralmaq, şəfa bulmaq, qəlbə fərəh verən, ürəyə qüvvət verən, köksü daralmaq və s.

“Tibbnamə”də tarixi iltisaqilik barədə istənilən qədər faktlar mövcuddur. Bəlli olduğu kimi, tarixən türk dillərində iltisaqilik daha fəal olmuş, orta yüzillərdən analitizm qüvvətlənmişdir. Yəni analitiklik özünü qabarıq şəkildə göstərir. Bunun əksi olan sintetiklik isə tədricən adi söz birləşmələrinin qrammatikləşməsi yolu ilə baş vermişdir. Ona görə də “Tibbnamə”də söz yaradıcılığı prosesi analitizm məzmunludur. Məs.: böyürtikan (böyürtkən), sarımsaq, yanıq, öldürücü və s.

“Tibbnamə”də *bul* köməkçi feili yaranan perifrastik-analitik feillər: xəmir ilə qıllarını bulmaq, şəfa bulmaq,

**-maz \-məz +ol:** Bu forma bir növ -ır ola formasının antonimi kimi işlənərək, inkarlıq yaratmağa xidmət edir. Məs.: Əgər bunula **getməz olsa,** qıl yerini çuvalduz ilə dağlayalar, xilas olub şəfa burar.

Qeyd edək ki, bu formaya digər abidələrdə, o cümlədən klassik Azərbaycan ədəbiyyatında rast gəlirik: Ağlamaqdan iki gözü görməz oldu (Əli); Dedi Sultan ki, bən bilməz olayın (“Dastani – Əhməd Hərami”); Nəhayətə irişür lətlərin ilə eşqim; Yüzünü görməz olursam qiyamət oldu bizə (Q.Bürhanəddin) və s.

**İsə** yarımçıq feili ilə formalaşan analitik feil formaları tarixən oğuz qrupu türk dilləri üçün xarakterikdir. **İsə** yarımçıq feili **(ersər-ersə-irsə-isə)** bir qrup dillərdə geniş istifadə olunmuş, həm adlara və həm də feillərə birləşərək müxtəlif semantik çalarlıqları (xüsusən də şərt anlamı) əmələ gətirmişdir.

**-ar+isə** forması: -Əgər baş ağrısı çlindən **yatar isə**, qan çoxluğundandır.

-ar+isə formantlı analitik feillər “Tibbnamə”də olduğu kimi, oğuz-səlcuq abidələrində də çox işlənmişdir. Həmin formant vasitəsilə iş, hal, hərəkətin icrası müəyyən şərtlə bağlı olur.

Feilin qrammatik məna növlərini ifadə edən və feil vasitəsi ilə ad yaradan morfoloji göstəricilər mükəmməl qrammatik səviyyədədir. Məs.: açmaq-açılmaq, keçmək-keçilmək, sürtmək-sürtülmək və s.

İndi olduğu kimi, “Tibbnamə”nin yarandığı mühitdə də bir sıra leksik şəkilçilər eynən öz məhsuldarlığını qoruyub saxlamışdır:

Fars ön şəkilçisi: nahamvar, bihuş, bixoş, naxoş, bivaxt və s.

Milli şəkilçilər: fayda+lı, bax+ıcı, sarı+lıq, fərəh+lik, tüpür+cək, sü+lük, dəmir+çi, süz+ənək və s.

Söz birləşməsi yolu ilə milli söz yaradıcılığı örnəkləri vardır ki, mürəkkəb söz məxrəcinə uyğun gəlir. Məs.: qaraboya, qara çörəkotu, acqarın, əməkköməçi və s.

“Tibbnamə”də tarixi semantika faktı kimi örnəklər maraq doğurur: sayru (xəstə), uçmaq (cənnət), ğəliz, yeylax, yanağ, güz (payız) və s.

Əsərdə tarixi fonetika üçün faktlar olduqca zəngindir: yengi (yeni), dışarı (bayır), kim (ki), çün (çünki) və s.

Atalar sözləri və məsəllərin istifadəsi də danışıq aktını yada salır: əski pambıq bez olmaz.

Milli sözlərin müəyyən qismi XVI əsrin sonuna doğru arxakiləşir: əski (qədim), becid (tez) və s.

“Tibbnamə”də işlənmiş qədim türk sözlərinin bir hissəsi müasir türk dilində qalmaqdadır: kəndi, həp, qanlu, birər, ikişər və s.

“Tibbnamə”də təkrarların çoxluğu orta əsrlər dövründə dilin leksik və qrammatik sabitliyinin mühüm göstəricisi kimi özünü göstərir: qətrə-qətrə, para-para, gəli-gəli və s.

Əsərin dilinə və üslubuna xas olan xarakterik cəhətlərdən biri də xalqın daha asan dərk etdiyi alınma sözlərin yetərincə işlənməsidir: yel (xəstəlik), cəviz (qoz), ayğır (at balası), nəsnə (şey), çiban (xəstəlik) və s. Ümumiyyətlə, orta əsrlər dövründə ortaya çıxmış əsərlərdə, o cümlədən

"Tibbnamə"də "qrammatik semantikalar (kateqoriyalar) nitq aktı kimi, fikir, düşüncə ifadəçisi kimi hazır şəkildə verilir, hallar üzrə dəyişmələr, şəxs və zamanlar üzrə sistemli bütöv təsriflər yox, şəxslənmiş, zamanlanmış, kəmiyyətlənmiş, morfemləri yerbəyer olunmuş morfologiya sintaksisin içində, mətndə, bilavasitə nitq fəaliyyətində göstərilir. Aydın olur ki, morfemlər bu fonetika və semantikaya yetmək üçün min beş yüz, iki min il inkişaf yolu keçmiş və kamala dolmuşdur" (Hacıyev, 2012:309).

Bədii üslubda olduğu kimi, klassik-kitab dili və folklor-danışıq dili ənənələri elmi üslubda da davam etdirilir. "Tibbnamə" tipli əsərlər vasitəsilə dövr barədə tarixi bilgilər, həmin dövrün dil və üslub normasındakı inkişaf və təkamülünü görürük.

"Tibbnamə"də: 1) elmi üslubun klassik dil ifadəsi; 2) elmi üslubun xəlqi-demokratik nitq ifadəsi: "İsti havalar insanın bənizini saraldır və qüvvətini zəif edir və lakin soyuq havalar dəxi bədəni qüvvətli eyləyir, əgər bu məhəldə qan həddindən çox olur və tərpəşir, qan almaq lazımdır, əgər (xəstəni) qüvvətli eylərsə, qan almaq dəxsi xeyirlidir və qüvvəti qalırsa, soyq şərablardan, məsələn, şərabi-vərditəri və şərabi-həmmas və şərabi-limon və şərabi-hindaba və şərabi-təməri-hindi və şərabi iskəncəbin içirsələr, xeyirdir (Şirvani, 1990:143).

Bu mətnin son cümləleri elmi üslubun klassik dil ifadəsidir. Ona görə ki, klassik dilə məxsus izafətlər burada çoxdur. Mətnin yuxarı hissəsi isə xəlqi nitq nümunəsidir.

"Tibbnamə"nin dili Azərbaycan dilinin (əski) elmi üslubunun o dövrdə necə demokratik və yetkin səviyyədə olduğunu təsdiqləyir (5).

Elmi nəsrin, hətta xəlqi dil təzahüründə türk mənşəli arxaizmlərə-milliyəqədərki dövrün lüğət nümunələrinə rast gəlmək olur. Bu örnəklərin dili arasındakı fərqlər əsrə görə yox, müəllififlərin fərdi üslubu ilə əlaqədardır (6).

"Tibbnamə"nin dilində analitizmin qalıqları mövcuddur. Mətnlərdəki mürəkkəb sözlərin yazılışında bu halla qarşılaşmaq olur. Həmin sözlərdə qrammatik məna formalarla yox, əsasən, köməkçi sözlər, sözlərin sırası və s. intonasiya ilə təzahür olunur. "Təşkil edildi", "qəbul olundu" tipli mürəkkəb feillər belə qalıqlardandır (7).

## Nəticə

Məlumdur ki, dilimizin ərəb və fars dilləri ilə uzunmüddətli qarşılıqlı əlaqələri nəticəsində tarixən bir çox həmin dillərə xas sözlərlə bərabər, həmin dillərə məxsus sintaktik vahidlər izafət tipli birləşmələr də daxil olmuşdur. Həmin birləşmələrdən "Tibbnamə" əsərində də çox istifadə olunmuşdur. Əlbəttə, bu birləşmələr dilimizin milli təbiətinə yaddır. Bu əsərdəki izafət birləşmələri daha çox yazılı ədəbi dilin normalarını əks etdirir və yazılı nitq faktı kimi nəzəri özünə cəlb edir. Bəzi belə birləşmələrin "Tibbnamə"nin mətnlərində işlədilməsi nitqə yazı ağırlığı gətirir, ifadə tərzini rəsmiləşdirir. Əsərdəki izafət birləşmələrinin bir qismi terminoloji xarakterilidir (məs.: mətbuxi-iftimun, həbbi-lacivərd, həbbi-iftimun və s.). Bizə elə gəlir ki, beləleri sintaktik funksiyasını itirərək leksik tamlıq qazanmışdır. Hissələrin arasındakı sintaktik əlaqənin itməsi və vahid bir vurğu altında deyilməsi müəyyən durumlarda əsərdəki izafət birləşmələrinin mürəkkəb sözə transformasiyasına imkan yarada bilmişdir. Məs.: təngnəfəs, əhlikef və s.

## Ədəbiyyat

1. Əlizadə, A. (1988). Elmi üslubda nitq mədəniyyətinin təzahürləri. Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı: APİ-nin nəşri.
2. Ələkbərli, F. (2013). Ortaçağ şərq təbabəti. Birinci cild, Bakı.
3. Hacıyev, T. (2012). Azərbaycan ədəbi dilinin tarixi. I cild, Bakı: "Elm".
4. Şirvani, M. (1990). Tibbnamə. Bakı.
5. https://vital.az/tibb_tarixi.html
6. https://www.alakbarli.aamh.az/index.files/159.htm
7. http://shura.ict.az/filologiya/uploads/felsefe_doktoru_pdf/2017_Fels.dok.uzre.pdf.

Göndərildi: 25.08.2022 Qəbul edildi: 03.10.2022

DOI: https://doi.org/10.36719/2789-6919/14/11-15

**Zeynəbxanım Vaqif qızı Ələkbərova**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
zeynebkhanim.alakbarova0@teams.adpk.edu.az

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ESTETİK TƏRBİYƏSİNİN ƏHƏMİYYƏTİ

## Xülasə

Məqalədə məktəbəqədər yaşlı uşaqların gözəlliyi dərk etmək və qiymətləndirmək qabiliyyətinin inkişaf etdirilməsinin, onlarda həyata, əməyə, təbiətə, incəsənətə, estetik münasibət formalaşdırılmasının vacibliyi təhlil edilir.

Estetik tərbiyə uşaqların ətraf mühitlə maraqlanan, ünsiyyətcil, müstəqil, yaradıcı şəxsiyyətlər kimi inkişafında müstəsna əhəmiyyətə malikdir. Buna nail olmaq üçün ilk növbədə onların estetik qavrayışını, estetik hisslərini və ideyalarını sistemli şəkildə inkişaf etdirmək lazımdır.

Estetik tərbiyə məktəbəqədər təhsil müəssisəsində bütün tərbiyə işləri ilə birlikdə həyata keçirilməlidir. Uşaqların estetik inkişafının təşkili formaları çox müxtəlifdir və bu işin effektivliyi məktəbəqədər uşağın bütün fəaliyyət növlərində özünü göstərir.

Məqalədə uşağın estetik tərbiyəsini uğurla təşkil etmək üçün lazımi şəraitin yaradılmasının, onları uşaq ədəbiyyatı, musiqi, xalq yaradıcılığı və rəssamlığın ən yaxşı nümunələri ilə tanış etməyin vacibliyi qeyd edilmişdir.

***Açar sözlər:*** *estetik tərbiyə, uşaq, məktəbəqədər müəssisə, uşaq yaradıcılığı, inkişafetdirici mühit*

**Zeynabkhanim Vagif Alakbarova**
Azerbaijan State Pedagogical College under ASPU
zeynebkhanim.alakbarova0@teams.adpk.edu.az

## Importance of aesthetic education of preschool children

## Abstract

The article analyzes the importance of developing the ability of pre-school children to understand and appreciate beauty, to form an aesthetic attitude towards life, work, nature, art.

Aesthetic education is of exceptional importance in the development of children interested in the environment, sociable, independent, creative personalities. To achieve this, first of all, it is necessary to systematically develop their aesthetic perception, aesthetic feelings and ideas.

Aesthetic education should be carried out together with all educational activities in a preschool educational institution. The forms of organization of aesthetic development of children are very diverse, and the effectiveness of this work is manifested in all types of activities of a preschool child.

In the article, the importance of creating the necessary conditions for the successful organization of the aesthetic upbringing of the child, introducing them to the best examples of children's literature, music, folk creativity and painting is mentioned.

***Keywords:*** *aesthetic education, child, preschool, children's creativity, developmental environment*

## Giriş

Uşaqlar lap körpəlikdən onları əhatə edən gözəlliyi hiss edirlər. Onlar musiqi eşidir və ondan həzz alır, şeirləri və mahnıları, gözəl şəkilləri, təbiət hadisələrini sevirlər. Gözəlliklə qarşılaşan uşaqlar özlərinə məxsus bir şey yaratmaq istəyirlər – plastilindən fiqurlar düzəltməyə, mahnı oxumağa, rəqs etməyə çalışırlar. Bu da onlarda yaradıcılığa və inkişafa təkan verir. Məktəbəqədər yaşdakı uşaqlara ətrafındakı gözəllikləri görməyi, sevməyi öyrətmək, onları özlərinin yaratmaq bacarığını tərbiyə etmək bütün dövrlərdə vacib məsələlərdəndir. Buna görə də məktəbəqədər tədris

müəssisələrində uşaqların intellektual və fiziki inkişafı ilə yanaşı, estetik tərbiyəsi də prioritet vəzifə kimi önə çəkilir.

*Uşaqların estetik tərbiyəsi dedikdə nə nəzərdə tutulur? Təkcə gözəl şeyləri görmək və mənəvi dəyərlərə yiyələnmək deyil, həm də gözəl davranış qaydalarını öyrənmək, insanlarla mehriban davranmağı öyrənmək estetik tərbiyədən qaynaqlanır.* Onun məqsədi həyata, əməyə, ictimai fəaliyyətə, təbiətə, incəsənətə, estetik münasibət formalaşdırmaqdır.

"Estetik tərbiyə – gerçəklikdə və incəsənətdə gözəlliyi dərk etmək və qiymətləndirmək qabiliyyətinin inkişaf etdirilməsi deməkdir, estetik hisslərin, estetik mühakimə yürütməyin və zövqlərin həyatda və bədii yaradıcılıqda, gözəlliyin yaradılmasında iştirak etmək bacarığının və tələbinin tərbiyə edilməsi deməkdir" (Həşimov, 1991:62).

Estetik tərbiyə uşağın inkişafında, həyatda və sənətdə gözəllik haqqında təsəvvür və biliklərin formalaşmasında böyük əhəmiyyət kəsb edir. Onun ən mühüm vəzifəsi estetik maraqların, tələbatların, eləcə də zövqün formalaşdırılmasıdır.

Uşaqlıq təəssüratlarının gücü və uzunömürlülüyü hamıya məlumdur. Gələcək şəxsiyyətin estetik mədəniyyətinin təməlində ilk "kərpiclər" formalaşmanın ən erkən mərhələlərində ailədə və məktəbəqədər tədris müəssisələrində qoyulur.

Əminliklə demək olar ki, hər bir uşaq anadangəlmə yaradıcılıq qabiliyyətləri ilə doğulur. Amma onlar gizli vəziyyətdədirlər və onları üzə çıxarmaq üçün müəyyən şərait yaratmaq lazımdır.

Məktəbəqədər uşağın estetik tərbiyəsini uğurla təşkil etmək üçün lazımi şərtlər təmin edilməlidir:

- inkişafetdirici mühit yaratmaq
- təbiət və incəsənətlə qarşılıqlı əlaqəni təşkil etmək
- yaradıcılıq fəaliyyəti təşkil etmək.

Məktəbəqədər uşaqlar forma, rəng, səsə diqqət yetirir, gözəlliyi forma və məzmunun vəhdətində dərk edirlər. Körpə bir şeyi bəyəndikdə gözəl hisslər, həyəcan, ləzzət, sevinc yaşayır. Bu zaman, pedaqoq və ya valideyn uşağın emosional reaksiyasını adi qavrayışdan gözəlliyi dərk etməyə, öz rəyini formalaşdırmağa yönəltməyi bacarmalıdır. Beləliklə, onda yaxşı bir estetik zövq formalaşmağa başlayacaqdır. Düzgün tərbiyə ilə məktəbəqədər uşaq təkcə gözəlliyi dərk etməyi deyil, həm də gündəlik həyatda, evdə, bağçada, təbiətdə, geyimdə gözəlliyi görməyi öyrənəcəkdir.

"Estetik tərbiyənin vəzifələri estetik təsir mənbələrinin müxtəlifliyində, insanın estetik inkişaf yollarının mürəkkəbliyində, gözəli qavramaq və hiss etmək bacarığında öz əksini tapır" (Vetlugina, 2011:26).

Məktəbəqədər yaşlı uşaqları uşaq ədəbiyyatı, musiqi, xalq yaradıcılığı və rəssamlığın ən yaxşı nümunələri ilə tanış etmək vacibdir. Beləliklə, uşaqlar başa düşdükləri sənət əsərlərini tanımağı və sevməyi öyrənəcəklər.

Əslində uşaqlar demək olar ki, bütün yaradıcılıq növləri ilə məşğul ola bilirlər: onlar rəsm çəkir, müxtəlif fiqurlar düzəldir, yapışdırır, kəsir, rəqs edir, mahnı oxuyur, nağıllar uydurur və hətta qafiyələr də düzəldirlər. Uşaq musiqiyə, rəqsə, gözəl nitqə maraq göstərirsə və özü də oxşar bir şey etmək istəyirsə, demək o, müstəqil yaradıcı fəaliyyətə hazırdır. Körpəni dəstəkləməklə, kömək etməklə, onlarda özünəinam və qabiliyyətlərini təcəssüm etdirmək üçün ideyalar yaratmaq bacarığını formalaşdıra bilərik.

Uşaq bağçasında uşaqlara sənət sevgisini aşılamaq üçün hər cür imkan var:

- vizual fəaliyyət və nitq bacarıqlarının inkişafı üzrə dərslər
- musiqi dərsləri
- teatr oyunları
- tematik dərslər
- bayramlar.

*Körpəyə musiqini, rəqsi, teatrı tədricən, diqqətlə başa düşməyi öyrətmək lazımdır.* Uşaq 3-4 yaşına çatdıqda, artıq eşitdiklərini müzakirə etməyə cəhd edilməlidir, məsələn, xoşladıqları musiqi, musiqi alətləri, nağıl süjetləri, heyvanlar, nağıl personajlarının şəkilləri haqqında danışmaq və onlarda maraq yaratmaq olar.

Balacaları körpəlikdən teatra da aparmaq olar. Kukla teatrlarında həmişə balacalar üçün tamaşalar olur. Tamaşalar 30 dəqiqədən çox çəkmir və uşaqlar yorulmur. Teatra getməzdən əvvəl

uşağa vacib bir yerə getdiyini və orada necə davranacağını izah etmək, onu gözəl geyindirmək lazımdır ki, tədbirin əhəmiyyətini hiss etsin. Bu, artıq onlarda maraq oyadacaq. Körpədən gördükləri və eşitdikləri ilə bağlı təəssüratlarını mütləq soruşmaq lazımdır. Əgər uşaq məmnun deyilsə, fasilə vermək və bir müddət sonra mədəni fəaliyyətlər təşkil etməyə yenidən cəhd etməlidir.

Məktəbəqədər uşağın estetik zövqünü formalaşdırmaqla, bir insanın gələcək mənəvi sərvətinin əsasını qoyulur.

Uşaqların bədii yaradıcılığının inkişafı ümumi pedaqoji işin üzvi hissəsi kimi baxılır. Bu fəaliyyət uşaqların fərdi xüsusiyyətlərini müəyyən etməyə və hər bir uşağın yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyin ən yaxşı yollarını müəyyənləşdirməyə əsaslanmalıdır. Bu, o demək deyil ki, uşaqları fərqləndirmək, istedadlıları ayırmaq onlarla xüsusi məşğul olmaq lazımdır. Əksinə, müəyyən bir fəaliyyətə yiyələnməkdə çətinlik çəkən uşaqları digərləri ilə bir qrup şəklində işlətməklə onlarda maraq yaratmaq olar.

"Uşaqların bədii yaradıcılığı körpənin fərdi qabiliyyətlərinin ifadəsidir, ətraf aləmə və özünə münasibətin bədii formasında ifadəsidir. Bədii yaradıcılıq estetik tərbiyənin tərkib hissəsidir, buna görə də uşağın şəxsiyyətini inkişaf etdirməyin ayrılmaz vasitəsi hesab olunur" (Likhachev, 2012:17).

Uşaqların yaradıcılığından qrupun, bütövlükdə uşaq müəssisəsinin həyatında geniş istifadə edilməlidir ki, uşaqlar öz yaratdıqlarını qiymətləndirsinlər. Onlar bağçada bayramlar üçün dekorasiyaların yaradılmasında iştirak etməli, səhnəciklərin kostyumlarının detallarını, mahnıları, rəqsləri və s. hazırlamalıdırlar.

Uşağın həyatının hər anı estetika ilə dolmalıdır, ona görə də uşaqların gözəlliklə əhatə olunması üçün estetik mühit yaratmaq vacibdir. Estetik tərbiyənin problemlərini həll etmək üçün müəllim ümumiyyətlə yaradıcılığın nə olduğunu və uşaq yaradıcılığının spesifikliyinin nədən ibarət olduğunu bilməlidir. Bu, ona uşaqların təşəbbüsünü dəstəkləməyə, onların incəsənətin hər hansı bir sahəsi üzrə məşğul olmalarına təkan verəcəkdir. Eyni zamanda, müəyyən biliklər, bacarıqlar mənimsənilmədən onların yaradıcılığı inkişaf edə bilməz. Yaradıcılığı inkişaf etdirmək üçün uşaqlar müəyyən biliklərə və bacarıqlara yiyələnməli, fəaliyyət üsullarını mənimsəməlidirlər, yəni, uşaqları məqsədyönlü şəkildə tərbiyə etmək lazımdır. Məsələn, nağılları səhnələşdirərkən qəhrəmanların üz ifadələrini, jestlərini, səs variasiyalarını və s. göstərmək, anlatmaq lazımdır ki, onlar da obrazı təsvir etdikləri, düşündükləri kimi canlandıra bilsinlər. Yaxud, uşaqlar plastlindən hər hansı bir fiqur düzəldirlərsə və onlardan biri bu fiquru tərbiyəçinin göstərdiyi ölçüdən daha kiçik və ya daha böyük düzəldirsə, bu onun yaradıcılığı olacaqdır. Şəkilə bəzi detalların əlavə edilməsi də uşaqların yaradıcılığının təzahürü sayıla bilər. Məsələn, uşaq şəkildə rəng dəyişikliyi edərək öz yaradıcılığını ifadə edə bilər: qırmızı alma çəkmək tapşırılıb, bir uşaq öz təşəbbüsü ilə sarı və ya yaşıl alma çəkir, yaxud müəllimin göstərişi ilə quş çəkirlər, uşaqlardan biri açıq dimdikdən nazik dalğalı xətlər çəkir: "Quş oxuyur" deyə izah edir, "bu onun səsidir". Burada biz artıq təxəyyül və yaradıcılığın təzahürünü görürük.

Estetik tərbiyənin mühüm vasitələrindən biri olan təbiətə xüsusi diqqət yetirilməlidir. Təbiət estetik tərbiyənin mənbəyidir. Uşaqlar gözəlliyi görməklə, ondan həzz almaqla kifayətlənmir, gördüyü, duyuğu və daxilən yaşadığı gözəllik əlamətlərini əqlin köməyilə düşüncəsinin süzgəcindən keçirir, onu təhlil edirlər.

B.A.Suxomlinski qeyd edirdi: "İnsan ona görə insan olmuşdur ki, mavi səmanın dərinliyini, ulduzların sayrışmasını, axşam şəfəqinin çəhrayı rəngini, küləkli gündüz ərəfəsində qıp-qırmızı qurubu, üfüq üzərindəki ilğımın titrəyişini, mavi səmada uçan durna qatarlarını, səhər şehininsaysız-hesabsız damlalarında günəşin inikasını, tutqun gündə çiskin yağışı, yasəmən kolunda bənövşəyi buludu, novruzgülünün zərif saplağını görüb heyran qalmış və yeni gözəllik yaratmaq üçün yer üzünü gəzmişdir" (Talıbov, Ağayev, İsayev, Eminov, 2003:246).

Təbiətlə bağlı keçirilən tərbiyəvi işlər böyük imkanlara malikdir. Klassik pedaqoqlar təbiəti böyüməkdə olan nəslin gözəl tərbiyəçisi adlandırmışlar, çünki təbiət onların estetik hisslərinin inkişafına dərin təsir göstərir. Uşağın təbiətlə məqsədyönlü ünsiyyəti nə qədər tez həyata keçirilərsə, onun humanist yönümündə və mənəvi inkişafında bir o qədər dərin iz qoyacaqdır. Təbiətin qavranılması uşaqların təxəyyülünün inkişafına, obrazlı estetik qavrayışına, obrazlı təsəvvürlərin formalaşmasına kömək edir.

Estetik hisslərin, ideyaların, təxəyyülün, estetik zövqün inkişafında təsviri sənət xüsusi rol oynayır. Körpəlikdən uşaq kitablarınındakı şəkillər həmişə uşaqların diqqət mərkəzində olur. Bu kitablarda hər bir rəssam təbiəti özünəməxsus şəkildə təsvir edir ki, bu da onların həm estetik qavrayışını, həm də yaradıcılığını zənginləşdirir. Təbiətin, heyvanların, bitkilərin şəkillərinin çəkilməsi təklifi həmişə uşaqlar tərəfindən müsbət qarşılanır. Özlərinin də bu mövzuda çəkdikləri şəkillər təbiət haqqında biliklərin möhkəmlənməsinə və aydınlaşdırılmasına kömək edir, uşaqların yaradıcılığını yeni obrazlarla zənginləşdirir, təbiətə maraq və ona müsbət münasibət formalaşdırır.

Məktəbəqədər yaşlı uşaqların estetik zövqünün formalaşmasında oyunlar müstəsna əhəmiyyət kəsb edir: onlar üçün oyun dərsdir, onlar üçün oyun işdir, onlar üçün oyun təlim formasıdır. Balacalar üçün oyun ətraf mühiti öyrənmək üsuludur.

Uşaq oyunlarının tərbiyəvi rolunu yüksək qiymətləndirən A.S.Makarenko yazırdı: “Oyun uşağın həyatında vacibdir, böyüklərin fəaliyyəti, işi, xidməti olması ilə eyni məna daşıyır. Uşaq nə oyundadırsa, böyüyəndə də bir çox cəhətdən o işin içində olacaq. Ona görə də gələcək şəxsiyyətin tərbiyəsi ilk növbədə oyunda baş verir” (Makarenko, 1984:373).

Uşaqlar ətrafdakı həyatı - insanların hərəkətlərini, fəaliyyətlərini, ətraf mühiti öz təxəyyüllərinə uyğun şəkildə oyunlar vasitəsi ilə ifadə edirlər. Uşaq böyüklərin həyatında fəal iştirakçı olmaq istəyir, lakin bu onun imkanlarına uyğun gəlmir. Buna görə də oyunda böyüklərin hərəkətlərini təqlid edərək, onların sevinc və kədərlərini ifadə edir, ətrafdakı həyata özünəməxsus şəkildə qoşulurlar, əsas bilik və bacarıqları oyun zamanı əldə edir.

Rəsm uşağın şəxsiyyətinin formalaşmasında ən mühüm vasitədir, bu, təbii ehtiyacdır, uşağın ruhunu üzə çıxarmaqdır. Təsviri sənət uşağın hərtərəfli inkişafı üçün böyük imkanlar daşıyır – zehni, emosional, estetik və s. Rəsm vasitəsilə təxəyyül və yaddaş kimi ən mühüm ali zehni funksiyalar formalaşır, əlin incə bacarıqları inkişaf edir və nəticədə onun inkişafı ilə əlaqəli düşüncə və nitq inkişaf edir.

“Məktəbəqədər yaşlı uşaqların qrafik fəaliyyəti elə emosional, yaradıcı fəaliyyətdir ki, bu da reallığın emosional-məcazi qavrayışını, estetik hisslərin və fikirlərin formalaşmasını, təfəkkür və təxəyyülü, obrazlılığın inkişafını təmin edir” (Komarova, 2014: 30).

Uşaqlara rəsm çəkməyi öyrətmək üçün bir çox üsullar mövcuddur ki, bu da məqsədyönlü estetik və vizual qavrayış prosesində nəzərə alınmalıdır. Uşaqların bədii qabiliyyətlərinin inkişafında ilk və ən vacib mərhələ körpənin bədii materiallar və atributlarla-kağız, qələm, boyalar, karandaşlarla tanış olmağa başladığı andan başlayır. 2-3 yaşında uşaq qələmi, fırçanı düzgün tutmaq bacarığına yiyələnir, onlardan düzgün istifadə etməyi bilir. İlk mərhələdə uşaqları maraqlandırmaq, onların diqqətini cəlb etmək vacibdir. Məsələn, parlaq, rəngarəng şəkillərə baxmaq uşaqlarda müsbət emosiyalar oyadır. Uşaq bəyəndiyi karandaşın rəngindən, sevimli boyasından həzz alır, rəsm çəkərkən ən çox onlardan istifadə edir.

Uşaqlarda rəsm çəkmək istəyi qısamüddətli, qeyri-sabitdir. Ona görə də müəllimə yaradıcı fəaliyyət prosesini lakonik və bacarıqla idarə etməli, uşaqlara tapşırığı dinləmək və yerinə yetirmək, başlanmış işi sona çatdırmaq bacarığını öyrətməlidir.

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin inkişaf etdirilməsində nağıllar mühüm rol oynayır. Nağıllar vasitəsilə uşaqlar həyatda ola biləcək hər cür real çətinliklərlə tanış olurlar və qismən buna hazırlaşırlar. Nağıllarda təsvir edilən obrazlar, həmçinin həmin sehrli dünyada baş verənlər məktəbəqədər yaşda olan uşaqları cəlb edir, maraqlandırır, düşündürür, yaddaşına həkk olunur, onların köməyi ilə sərbəst və cəsarətli düşünməyi öyrənirlər.

“Nağıllar xalq pedaqoji müdrikliyinin təzahürüdür, pedaqoji ideyaların xəzinəsidir, xalq pedaqoji dahiliyin parlaq nümunələridir”. “Heç kim xalqın pedaqoji dahiliyi ilə yarışmaq qabiliyyətində deyil” (Həsənov, Ağayev, 2007:135).

Estetik tərbiyə prosesində körpələrə aşılanan pedaqoji ideyalar məhz nağıllarda öz əksini tapmışdır.

## Nəticə

Yaxşı estetik zövqün aşılanması uşağın şəxsiyyətinin formalaşmasına təsir göstərir, bu isə cəmiyyətin hər kəsin yaradıcı inkişafında maraqlı olması deməkdir. Estetik tərbiyənin nəticəsi estetik inkişafdır ki, bu da öz növbəsində uşağın əxlaqi, fiziki, əqli inkişafına təsir edir, fərdin emosional sferasının zənginləşməsinə kömək edir.

Müasir təhsilin mərkəzində şəxsiyyət yönümlü öyrənmə dayanır. İnanıram ki, yalnız düzgün təhsil və tərbiyə prosesində pedaqoji fəaliyyətin iştirakçılarını optimal şəkildə inkişaf etdirmək, xalqımızın milli, yaradıcı potensialını zənginləşdirmək və üzə çıxarmaq mümkündür.

Uşaqlarda gözəllik duyğusunun məqsədyönlü şəkildə inkişaf etdirilməsi prosesinə mümkün qədər tez başlamaq lazımdır, əks halda çox gec ola bilər.

## Ədəbiyyat

1. Həşimov, Ə. (1991). Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı: Maarif, 240 s.
2. Vetlugina, N. (2011). Uşaq bağçasında estetik tərbiyə. Moskva: Maarifçilik, 244 s.
3. Likhachev, B. (2012). Estetik tərbiyə nəzəriyyəsi. Moskva: Tərəqqi, 430 s.
4. Talıbov, Y., Ağayev, Ə., İsayev, İ., Eminov, A. (2003). Pedaqogika. Bakı: Adiloğlu, 140 s.
5. Makarenko, A. (1984). Pedaqogika Əsərləri, IV cild. Moskva, 400 s.
6. Komarova, T. (2014). Uşaq bağçasında vizual fəaliyyətdə dərslər. Uşaq bağçası müəllimləri üçün bələdçi. Moskva: Maarifçilik, 291 s.
7. Həsənov, A., Ağayev, Ə. (2007). Pedaqogika. Bakı: Nasir, 494 s.

**Rəyçi: p.ü.e.d. Kərim Məmmədov**

Göndərildi: 25.08.2022 Qəbul edildi: 01.10.2022

DOI: https://doi.org/10.36719/2789-6919/14/16-20

**Nuray Vidadi qızı Nəbiyeva**
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
nurayabbasss@gmail.com

# YAŞAMAQ HÜQUQU, BU HÜQUQ ƏTRAFINDA BƏZİ PROBLEMLƏR, YAŞAMAQ HÜQUQUNUN DÖVLƏTDAXİLİ QANUNVERİCİLİK VƏ BEYNƏLXALQ AKTLARDA TƏSBİTİ

## Xülasə

Yaşamaq hüququ fərdin sahib olduğu təməl hüquq və azadlıqların başında gəlməkdədir. Belə ki, bu hüququn güvəncə altına alınmadığı sistemlərdə digər hüquqların tanınmasının və müdafiə altına alınmasının bir mənası olmayacaqdır. Yəni digər bütün hüquqların mövcudluğu və istifadəsi bu yaşama hüququna bağlıdır. Bu baxımdan insan hüquqlarına dair beynəlxalq sənədlərdə yaşamaq hüququ toxulunmaz hüquqlar və ya hüquqların sərt özəyi olaraq qəbul edilməkdədir. Bu araşdırmada yaşamaq hüququnun əhəmiyyəti, önəmi və istisnaları, bu hüququn qorunması baxımından dövlətin öhdəlikləri, eyni zamanda yaşamaq hüququnun haradan başlaması və nə zaman sona çatması, Azərbaycan Respublikası qanunvericiliyində və beynəlxalq sənədlərdə bu hüququn təsbiti mövzularına toxunulmuşdur.

***Açar sözlər:*** *yaşamaq hüququ, insan hüquqları, abort, ölüm cəzası, evtanaziya, avropa konvensiyası*

**Nuray Vidadi Nabiyeva**
Academy of Public Administration under the President of the Republic of Azerbaijan
master
nurayabbasss@gmail.com

# The right to life, some problems around this right, determination of the right to life in legislation and international acts

## Abstract

Right to life stands as one of the most important and primary right among the fundamental rights and liberties. İt has such an importance that without recognizing and guaranteeing this right, it would be unwise to recognize other rights and liberties. That is, the existence and use of all other rights depends on this right to life. From this point of view, in international human rights documents, the right to life is considered as an inviolable right or a hard core of rights. In this study, the importance and exceptions of the right to life, the obligations of the state in terms of protection of this right, at the same time where the right to life begins and when it ends, and the determination of this right in the legislation of the Republic of Azerbaijan and international documents were touched upon.

***Keywords:*** *right to life, human rights, abortion, death penalty, euthanasia, european convention*

## Giriş

Tarix boyunca insanların düşüncəsində daima bir haqq və azadlıq fikri yerləşmişdir. Fərdlərə bugünkü qədər çox və geniş hüquq və azadlıqlar tanınmasa da, ilk dövrlərdən bəri insanlara dövlətlər tərəfindən bir sıra hüquqlar tanınmışdır. Lakin hüquqlar arasında elə bir hüquq var ki, o olmadan digər hüquqlar formal olaraq qalır və istifadə olunmaz vəziyyətə gəlir. Bu hüquq hər kəsin sağ doğum faktından başqa heç bir şərt tələb etməyən yaşamaq hüququdur.

Yaşamaq şəxsin ən təməl hüququ, var oluşunun və fiziki davamlılığının ilk şərtidir. Bu səbəbdən də insanın ən üstün hüququ olan yaşamaq hüququna hörmət, bütün digər hüquqların

istifadə oluna bilməsi üçün mühüm amildir. Yaşama hüququ da yalnız insanın təhlükəsizliyi ilə mümkündür. İnsan sağ doğulduğu andan bu hüquqa sahib olmaqla, dövlətdən digər insanların və dövlətin yaşamaq hüququna hörmət göstərməsini və bu hüququn insanlar tərəfindən pozulması halına qarşı gərəkli tədbirlərin alınmasını tələb etməkdədir. Fərdin toxunulmazlığı lazımsız şəkildə, istənilən zaman pozula bilirsə və insan bədənsəl azadlığa malik deyilsə, bu halda onun digər hüquq və azadlıqlarınından istifadə etməsi və həyata keçirməsi imkansız hala gəlir. Bu səbəbdən yaşamaq hüququ digər bütün hüquqların təməlində və mərkəzində yer alır.

**Yaşamaq hüququnun əmələ gəlmə anı və sona çatması**

Yaşamaq hüququnun əmələ gəlməsi ilə bağlı iki müxtəlif fikir var. Bunlardan biri yaşamaq hüququnun hələ ana bətnində olarkən formalaşması ilə bağlıdır. İkinci fikir isə real həyatda hələ canlı kimi doğulmamış, mövcud olmayan uşağın hüquq subyektliyi məsələsi bir qədər mürəkkəbdir. Bu fikrin tərəfdarları insanın doğulduqdan sonra yaşamaq hüququ əldə etməsini qəbul edirlər (Əsgərov, 2011:140).

Azərbaycan Respublikasının Konstitusiyasının 27-ci maddəsi yaşamaq hüququna həsr edilmiş və ən təməl normaları özündə mükəmməl şəkildə ehtiva etmişdir. Belə ki, 27-ci maddənin ilk hissəsində qeyd olunur ki, hər kəsin yaşamaq hüququ vardır. Yaşamaq hüququnun şamil olunduğu “hər kəs”in hələ doğulmayan uşaqları əhatə edib-etməməsi məsələsində konsensus yoxdur. Bu məsələyə dair beynəlxalq sənədlərdən yalnız “İnsan hüquqlarına dair Amerikaarası Konvensiya” yaşamaq hüququnu açıq şəkildə rüşeymə, yəni ana bətnində olan embriona aid edir. Konvensiyaya görə yaşamaq hüququ ümumiyyətlə, maya bağlandığı andan qorunur.

Digər tərəfdən yaşamaq hüququnun hələ doğulmamış uşaqlara şamil olunub olunmaması məsələsi adətən aborta dair işlərin kontekstində ortaya çıxır. Abort yaşamaq hüququna bağlı olaraq üzərində ən çox mübahisə aparılan məsələlərdən biri olmuşdur. Bir çox mühafizəkar baxış abortu yaşamın müqəddəsliyi tezisi ilə rədd edərkən, liberal baxış sahibləri mövzuya qadının şəxsi həyatına hörmət göstərilməsi, törəmə haqqının onun şəxsində olmasını və öz gələcəyini özünün müəyyən edə bilməsinin fövqündə yaxınlaşmaqdadır. Keçən əsrə baxdığımızda abort mövzusunun liberal düşüncəlilərin xeyrinə nəticələndiyini bariz görə bilərik. Belə ki, abortun qanuniləşdirilməsini ilk dəfə 1917-ci ildə Rusiyada, 1935-ci ildə İslandiyada, 1938-ci ildə İsveçdə və 1970-ci illərə gəldikdə isə bir çox Avropa ölkələrində görə bilirik. Maltada abort tamamən qadağan olunduğu halda, İrlandiyada sadəcə ananın yaşamının təhlükədə olduğu hallarda yol verildiyini görə bilərik. Fransa isə “Könüllü hamiləlik” olaraq bilinən qanunu 1975-ci ildə qəbul edərək, 12 həftəyə qədər olan hamiləliklərin istək üzərinə sonlandırıla bilməsini qanuni olaraq təsbit etmişdir (2).

Azərbaycan Respublikasının qanunvericiliyində hamiləliyin süni surətdə pozulması qadının arzusu ilə hamiləliyin 12-ci həftəsinədək icazə verilmişdir. Sosial göstərişlər üzrə süni pozulma hamiləliyin 22-ci həftəsinə qədər aparıla bilər. Digər hallarda abort yalnız göstərişlərə əsasən həyata keçirilə bilər.

Avropa İnsan hüquqları Məhkəməsi aborta dair bir qərarında doğulmamış uşağın Avropa İnsan Hüquqlarına dair Konvensiyanın 2-ci maddəsində təsbit olunmuş “insan” olaraq qəbul edilə bilməyəcəyini və doğulmamış uşağın yaşamaq haqqı varsa belə bu haqqın ananın hüquqları və mənafeləri ilə məhdudlaşdığını vurğulamışdır. Hətta abortun qadağan edildiyi bəzi hallarda bu vəziyyəti “pis rəftar və işkəncə” olaraq qəbul etmişdir (3).

Bütün bu sadalananlardan belə qənaətə gələ bilərik ki, embrion və rüşeym qadından ayrı və müstəqil bir varlıq deyildir. Döllənmədən sonra embrionun doğuma qədər keçirdiyi mərhələlər qadına bağlı olaraq gerçəkləşir. Bu səbəbdən də onun yaşamını anadan ayrı şəkildə düşünməmək lazımdır. Belə qənaətə gələ bilərik ki, yaşamaq hüququ yalnız sağ doğulma şərti ilə insana məxsus ola bilər. İnsanın bir canlı varlıq kimi mövcudluğu anı artıq yaşamaq hüququnun əmələ gəlməsi üçün əsasdır. Yaşamaq hüququnun nə zaman bitməsi də mühüm əhəmiyyət kəsb edir. Yaşamaq hüququnun hər hansı hüquqi bir faktdan asılı olmadan mövcud olduğuna görə onun bitməsi də, bir qayda olaraq, ölüm faktı ilə baş verir. Lakin burada da müəyyən məsələlər var. Birincisi, ölüm faktının hansı anda əmələ gəlməsidir. Belə qəbul olunur ki, beynin fəaliyyətinin dayanması ölüm faktı kimi qəbul oluna bilər. Belə olan halda, hələ də öz funksiyalarını yerinə yetirən digər orqanların transplantasiya məqsədilə həkim tərəfindən ayrılması cinayət hesab olunmur. Çünki beynin fəaliyyətdən düşməsi ilə hüquqi fakt yaranmış olur (Əsgərov, 2011:141).

Könüllü olaraq şəxsin özünün həyatdan getməsi imkanı, yəni evtanaziya hüququ dövrümüzdə ən gündəmdə olan məsələlərdən biridir. Bu problemli məsələ ilə bağlı dünyada iki fikir mövcuddur. Belə ki, bəzi ölkələr bu fikri tam qəbul etməklə yanaşı onu leqallaşdırmış və dövlətdaxili qanunvericiliyində təsbit etmişdir. Bu dövlətlərə misal olaraq Hollandiya və İsveçrəni misal çəkə bilərik. Evtanaziya tərəfdarları fikirlərini belə əsaslandırırlar ki, sağalacağına ehtimal olmayan və şiddətli əzab çəkən şəxsin əzab çəkməsinin davam etdirilməsinə şərait yaratmaq lazım deyil və onu bu ağrı-acıdan qurtarmaq, özü istədiyi təqdirdə həyatdan getmək imkanı verilməlidir. Yəni insanın yaşamaq hüququ olduğu kimi yaşamdan imtina hüququ da olmalıdır və dövlət bu hüququn həyata keçirilməsini təmin etməlidir.

Digər və ilk fikrə tam əks fikirdə olan tərəftarlar isə həyatın insana özü tərəfindən verilmədiyi kimi özü tərəfindən də alına bilməyəcəyini bildirirlər. Çünki bu zaman evtanaziyadan sui-istifadə edilməsi halları da arta bilər. Eyni zamanda xəstəliklərin müalicə üsulunun tapılması da tam istisna olunmur.

Qanunvericiliyimizdə evtanaziyaya münasibət 26 iyun 1997-ci il tarixli “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunun 38-ci maddəsində əks olunmuşdur. Belə ki, həmin maddədə qeyd olunur ki, evtanaziya, yəni xəstənin xahişi ilə onun ölümünü hər hansı vasitə, yaxud hərəkətlə tezləşdirmək, həyatın davam etməsinə kömək edən süni tədbirlərin dayandırılması qadağandır. Xəstəni bilərəkdən evtanaziyaya meyl etdirən və ya evtanaziya edən şəxs qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyır (4).

**Yaşamaq hüququ azərbaycan respublikasının dövlətdaxili qanunvericiliyində**

Azərbaycan Respublikasının Konstitusiyasının 27-ci maddəsinin 2-ci hissəsində qeyd olunur ki, *dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.* Deməli, Konstitusiyaya görə, aşağıdakı hallar yaşamaq hüququndan məhrumedilmə kimi başa düşülə bilməz:

1) Dövlətə basqın zamanı düşmən əsgərinin öldürülməsi. Əlbəttə ki, dövlət sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü, daxili sabitliyini qorumaq, xalqın təhlükəsizliyinin təmin edilməsi üçün istənilən güc vasitəsindən istifadə etməkdə haqlıdır. Bu dövlətin müstəsna hüququdur (5).

2) Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə ölüm cəzasının tətbiqi. Bu sahədə ayrıca problem dövlətin müstəsna cəza tədbiri kimi ölüm cəzasının tətbiqi hüququdur. Yaşamaq hüququ həm də dövlətin ölüm cəzasının məhdudlaşdırıcısı kimi çıxış edir. Hətta bəzi hallarda bu, dövlətin qanunvericiliyində daha aydın şəkildə əks etdirilir. Bunun bariz nümunəsi Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəasını göstərmək olar. Onun tələbinə əsasən, müstəsna cəza tədbiri kimi Ölüm cəzası tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər (Əliyev, 2007:174).

Baxmayaraq ki, Azərbaycan Respublikasında ölüm hökmü 1998-ci il 10 fevral tarixli “Ölüm hökmünün ləğv edilməsi haqqında” qanunla ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə ləğv olunub, Konstitusiyanın məhz 27-ci maddəsində ki bu müddəanın saxlanılması fikirlərdə qarışıqlığa səbəb olur. Yeni Cinayət Məcəlləsində ölüm hökmünə dair cəza tədbiri nəzərdə tutulmamışdır, lakin Konstitusiyanın 27-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, müstəsna cəza tədbiri kimi ölüm cəzası, tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər. Nəzərə alsaq ki, Konstitusiyaya onun qəbulundan bugünə qədər edilmiş dəyişiklik və əlavələrdə bu müddəanın ləğvi və ya dəyişikliyi müzakirəyə çıxarılmamışdır, deməli, nə zamansa bu cəza tədbirindən istifadə edilməsi istisna olunmur.

3) Digər hallarda. Bu anlayış hələ qeyri-müəyyəndir və qanunvericilikdə dəqiqləşdirilir.

Konstitusiyanın 27-ci maddəsinin son hissəsində isə qeyd olunur ki, qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir. Bu müddəanın daha yaxşı başa düşülməsi üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə nəzər salmağımız mütləqdir.

Belə ki, Cinayət Məcəlləsinin 36-cı maddəsində zəruri müdafiə hərəkətinin anlayışı verilmişdir. Zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır. 38-ci maddədə isə son zərurət vəziyyətində edilən hərəkətə dair belə bir anlayış verilmişdir ki, son zərurət vəziyyətində, yəni şəxsin özünün və ya başqa şəxslərin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini bilavasitə qorxu altına alan təhlükəni aradan qaldırmaq üçün bu Məcəllə ilə qorunan obyektlərə zərər vurmaq yolu ilə törədilmiş hərəkət, əgər həmin vəziyyətdə bu təhlükəni başqa vasitə ilə aradan qaldırmaq mümkün deyildirsə və bu zaman son zərurət həddinin aşılmasına yol verilməmişdirsə, cinayət sayılmır. Bundan başqa 37-ci maddə isə bizə bildirir ki, cinayət törətmiş şəxsin səlahiyyətli dövlət hakimiyyəti orqanlarına gətirilməsi və ya yeni cinayətlər törətməsinin qarşısının alınması məqsədi ilə tutulduğu zaman ona zərər yetirilməsi, əgər həmin məqsəd üçün bütün digər təsir imkanlarından istifadə lazımi nəticə verməmişsə və bunun üçün zəruri olan tədbirlərin həddi aşılmamışdırsa, cinayət sayılmır (7).

Demək ki, güc tətbiqinə mütləq zərurət yarandıqda, istənilən şəxsin hüquqazidd zorakılıqdan qorunması üçün, qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısının alınması üçün, qanuna müvafiq olaraq dövlət təhlükəsizliyinə və dövlətdaxili sabitliyə təhlükə yaradan çevriliş və ya qiyamın yatırılması üçün həyatdan məhrum etmə yaşamaq hüququnun pozulması kimi nəzərdən keçirilmir.

## Yaşamaq hüququ beynəlxalq aktlarda

Yaşamaq hüququndan bəhs edərkən bu toxunulmaz və təbii hüququn mükəmməl şəkildə təsbit olunduğu bir sıra insan hüquqlarına dair beynəlxalq konvensiya və müqavilələrin araşdırılması mütləqdir. Bildiyimiz kimi, Azərbaycan Respublikası ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiyasındakı insan hüquq və azadlıqlarına dair müddəalar və insan hüquqları sahəsindəki digər qanunvericilik aktları mənbəyini məhz həmin beynəlxalq konvensiya və müqavilələrdən götürmüşlər. 1948-ci il tarixli “İnsan hüquqlarına dair” Ümumi Bəyannamə, 1950-ci il “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyası, 1966-cı il “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Pakt və s. Yuxarıda əhəmiyyətini vurğuladığımız aktlar sırasına daxildirlər.

1950-ci il “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasının 2-ci maddəsi yaşamaq hüququna həsr edilmişdir. Belə ki, maddədə təsbit olunmuşdur ki, hər kəsin yaşamaq hüququ qanunla qorunur. Hər kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz. Həyatdan məhrumetmə aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərururətin nəticəsi olduqda, bu maddənin pozulması hesab edilmir; şəxsin hüquqazidd zorakılıqdan qorunması üçün; qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün; qanuna müvafiq olaraq iğtişaşın və ya qiyamın yatırılması üçün (8).

1966-cı il tarixli “Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktın 1-ci maddəsində də həmçinin yaşamaq hüququna müstəsna önəm verilərək vurğulanır ki, yaşamaq hüququ hər bir insanın alınmaz hüququdur. Bu hüquq qanunla qorunur. Heç kim özbaşınalıqla həyatdan məhrum edilə bilməz. Ölüm hökmünün ləğv edilmədiyi ölkələrdə ölüm hökmü cinayətin törədildiyi dövrdə fəaliyyətdə olan və hazırkı Paktın və Genosid cinayətlərinin önlənilməsi və ona görə cəza haqqında Konvensiyanın müddəalarına zidd olmayan qanuna müvafiq olaraq ən ağır cinayətlərə görə çıxarıla bilər. Bu cəza yalnız səlahiyyətli məhkəmənin qəti hökmünü icra etmək məqsədilə həyata keçirilə bilər. Sonralar 1989-cu il 15 dekabr tarixli “Mülki və Siyasi hüquqlar haqqında” Beynəlxalq Paktın Ölüm hökmünun ləğvinə yönəlmiş ikinci Fakultativ Protokolunun qəbul edilməsi ilə isə həmin Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyasında olan heç kəsin ölüm cəzasına məhkum olunmaması, hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında ölüm cəzasının ləğvi üçün bütün zəruri tədbirləri görməsi dövlətlərin üzərinə öhdəlik olaraq qoyulmuşdur. Bu Protokolun məntiqi nəticəsi olaraq da Azərbaycan Respublikasında 1998-ci il 10 fevral tarixində ümumilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölüm hökmü ləğv edilmişdir (9).

## Nəticə

Yuxarıda sadaladıqlarımızın fövqündə nəticə olaraq qeyd edə bilərik ki, yaşamaq hüququ insanın təbii, ayrılmaz və toxunulmaz hüququdur. Bu hüququn hər hansı qanunsuz üsulla sıradan çıxarılması həm dövlətdaxili hüquqda, həm də beynəlxalq hüquqda məsuliyyətinə səbəb olur. Yaşamaq hüququ mülki hüquq və azadlıqlar sahəsində toplanmış bütün hüquq və azadlıqların ilkin əsasını təşkil edir.

Çox təəssüflər olsun ki, bu gün dünyada dövlətlər arasında başverən silahlı münaqişələr səbəbindən günahsız mülki əhalinin yaşamaq hüquqları kobud surətdə pozulur və əllərindən alınır. Bu məqamda diqqətinizi 26 fevral 1992-ci il tarixində gerçəkləşən "Xocalı soyqırımı"na, Azərbaycanın qürur səlnaməsi olan 44 günlük "Vətən Müharibəsi" dövründə təcavüzçü Ermənistan silahlı qüvvələrinin 2020-ci il 04, 05, 11 və 17 oktyabr tarixlərində Gəncə şəhərində yaşayış məkanlarına, 27-28 oktyabr tarixlərində Bərdə şəhərinin dinc sakinlərinin sıx hərəkətdə olduğu bölgələrə edilmiş raket hücumlarına çəkmək istərdim. Həmin hücumlar nəticəsində içlərində qadın, uşaq, qoca olmaqla onlarla mülki əhalinin həyatına amansızlıqla son qoyulmuş, yaşamaq hüququ beynəlxalq humanitar hüququn, beynəlxalq konvensiyaların tələblərinə məhəl qoyulmadan, ədalətsiz şəkildə və ən kobud formada əllərindən alınmışdır. Əfsuslar olsun ki, bu ədalətsizliyə qarşı dünya birliyi hələdə susmaqda davam edir.

## Ədəbiyyat

1. Əsgərov, Z. (2011). Konstitusiya hüququ. Dərslik. "Bakı Dövlət Universitetinin" nəşriyyatı.
2. https://dergipark.org.tr/tr/download/article-file/814477
3. https://www.anayasa.gov.tr/media/3555/yasama-hakki.pdf
4. https://e-qanun.az/framework/4078
5. https://www.e-qanun.az
6. Əliyev, Ə. (2007). Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: "Bakı Dövlət Universiteti" nəşriyyatı.
7. https://www.e-qanun.az/framework/46947
8. https://www.echr.coe.int/documents/convention_eng.pdf
9. https://www.ohchr.org/en/instruments-mechanisms/instruments/international-covenant-civil-and-political-rights

**Rəyçi: siyasi elm.ü.f.d. Cahangir Cahangirli**

Göndərildi: 22.08.2022 Qəbul edildi: 28.09.2022

DOI: https://doi.org/10.36719/2789-6919/14/21-23

**Ayxan Afiq oğlu Zeynalov**
Bakı Dövlət Universiteti
magistrant
ayxan.zeynalov.00@mail.ru

# AZƏRBAYCANIN İQTİSADİYYATINA XARİCİ KAPITALIN CƏLB OLUNMASININ BÜDCƏ-VERGİ MEXANİZMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə**

Büdcə-vergi siyasətinin əsas məqsədi təkcə dövlətin büdcəsinin formalaşdırılmasından ibarət deyildir, həm də büdcənin doldurulmasında vergilərin rolunu artırmaqla təkrar istehsalın stimullaşdırılması və idarə olunmasının təkmilləşdirilməsinə nail olmaqdır.

Müasir dövrdə diferensial vergi dərəcəsindən və vergi imtiyazlarının verilməsindən istifadə edərək, vergilərlə gəlirlərin yenidən bölgüsü sistemi vasitəsilə, istehsalın əsaslandırılmış struktur yenilənməsini və əhalinin həyat ehtiyaclarını təmin edən sahələr üzrə və bu əsasda dövlət büdcəsinin doldurulmasına istiqamətlənmiş vergi mexanizmlərinin seçilməsi mütləqdir. Praktikada dövlətin bu fəaliyyəti vergi dərəcələrinin, vergi güzəştlərinin, vergi yükünün vasitəsilə vergitutmanın dövlət tərəfindən idarə olunmasının təşkilati formalarının məcmusu kimi qiymətləndirilir.

***Açar sözlər:*** *xarici kapital, büdcə, vergi, iqtisadiyyat, investisiya, investor*

**Aykhan Afig Zeynalov**
Baku State University
master
ayxan.zeynalov.00@mail.ru

## Evaluation of the budget-tax mechanism of attracting foreign capital to the economy of Azerbaijan

**Abstract**

The main objective of the budget-tax policy is not only the formation of the state budget, but also the improvement of the stimulation and management of reproduction by increasing the role of taxes in filling the budget.

In modern era, using the differential tax rate and the granting of tax privileges, through the system of redistribution of income with taxes, it is necessary to choose tax mechanisms aimed at filling the state budget in the areas that provide the justified structural renewal of production and the life needs of the population. In practice, this activity of the state is evaluated as a set of organizational forms of state management of taxation through tax rates, tax benefits, tax burden.

***Keywords:*** *foreign capital, budget, tax, economy, investment, investor*

## Giriş

Ölkə iqtisadiyyatına beynəlxalq maliyyə resurslarının cəlb olunmasında dövlətin birbaşa iştirakı vergi mexanizmləri vasitəsilə, vergi dərəcələri, vergi güzəştləri kimi alətlərin köməyi ilə təşkil olunur. Belə ki, ölkədə bu növdən olan fəaliyyət vergi dərəcəsinin vergi qanunvericiliyinin əsasına toxunulmadan müəyyən dəyişiklər etməklə tənzimlənməsi müsbət addım sayıla bilər. Bu dəyişikliklərə misal kimi, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar fonunda Azərbaycan Respublikası Vergi Məcəlləsində gəlir vergisinin 12-55%-dən 14-25%-ə kimi və mənfəət vergisinin dərəcələrinin 35%-dən 20%-qədər aşağı salımasını, mərkəzi və regional vergi dərəcələrinin diferensiallaşdırılmaqla (sadələşdirilmiş vergi dərəcəsinin tətbiqi kimi) təşkilini göstərə bilərik. Azərbaycan Respublikası Vergi Məcəlləsinin məzmunu fiskal məqsədlərə deyil, həm də tam iqtisadiyyatın və ayrı-ayrı fəaliyyət sahələrinin inkişafının stimullaşdırılması, investisiyaların, yeni texnologiyaların cəlb olunması və bir sıra

məqamlarda sosial sahələrin dəstəklənməsi kimi məqsədlərə də xidmət edir (Ələkbərov, 2005:54).

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 11-ci maddəsində verginin anlayışı göstərilmişdir: "Vergi – dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədilə vergiödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində, bu Məcəllədə başqa hal nəzərdə tutulmamışdırsa, dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir" (2).

Bildiyimiz kimi, dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir. Ölkənin müvafiq hakimiyyət orqanları dövlət büdcəsinin formalaşmasını və icra edilməsini təmin edir. Azərbaycanın iqtisadiyyatına xarici kapitalın cəlb olunmasının büdcə siyasətinin önəmli fazası gəlirlər hissəsinin formalaşma mənbələrini müəyyən etmək və maliyyə sabitliyinin təmin olunması istiqamətində büdcə kəsrinin maksimum aradan qaldırılmasına nail olmaqdır.

Büdcə-vergi mexanizmlərinin istifadəsi əsasında dövlət büdcəsinə vergi daxili olmalarının dəyişməsi dinamikasına nəzər yetirək: 2010, 2014, 2015, 2016-cı illər ərzində dövlət büdcəsinə müvafiq olaraq 4292,8, 7113,6, 9368 və 9890 mln manat vəsait vergilər vasitəsilə daxil edilmişdir (3). 2022-ci ilin yanvar-may aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 5 milyard 803 milyon 736,4 min manat vergi daxil olub, proqnoza 149,3 faiz əməl edilib. Ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 52,3 faiz və ya təxminən 2 milyard manata yaxın (1 milyard 993 milyon 93,7 min manat) artıb (4).

Hökumətin qarşıya qoyduğu əsas məqsədlərdən biri də, ölkə iqtisadiyyatında neft-qaz amilindən asılılığını böyük dərəcədə azaltmaq və iqtisadiyyata xarici kapitalın cəlb olunmasına bu mexanizmlərin istifadəsi hesabına nail olmaqdır. Tətbiq olunan vergi güzəştləri və təşviqləri əsasında və iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf konsepsiyasının həyata keçirilməsi nəticəsində vergi daxilolmaları artmış və Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb olunması dinamikası yüksəlmişdir. Sahibkarlıq fəaliyyətinə xarici kapitalın cəlb olunması üçün əlverişli mühitin yaradılması məqsədilə Azərbaycan Respublikası Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən vergi güzəştlərinin çoxluğu qeyd olunur. Xüsusilə, Vergi Məcəlləsinin 101-ci, 102-ci (fiziki şəxslərin gəlir vergisi üzrə), 106-cı (mənfəət vergisi üzrə), 164-cü (ƏDV üzrə), 199-cu (əmlak vergisi üzrə) və 207-ci (torpaq vergisi üzrə) maddələrinə edilmiş güzəşt xarakterli dəyişikliklərin əsas məqsədi sahibkarlıq fəaliyyətinin və muzdlu işçilərin vergi yükünün azalmasına, iqtisadi artımın və maddi rifahın təmin olunmasına və xarici kapitalın cəlb olunmasına istiqamətlənir (2). Ümumilikdə, bu yeniliklər əsasən yeni yatırımlar hesabına yaradılan sənaye və texnologiyalar parklarının rezidentləri üçün əlavə əlverişli "vergi rejiminin" yaradılmasına və beləliklə, ölkədə müəssisələrin rəqabət qabiliyyətinin artırılmasına, innovativ fəaliyyətlərin dəstəkləməsinə şəraitin yaradılmasına istiqamətlənir. Xarici investisiyaların cəlb edilməsinə imkan yaradan daha bir element xüsusi iqtisadi zonaların və sənaye zonalarının yaradılması və inkişafıdır. Xüsusi iqtisadi zonalar daha çox vergi və gömrük güzəştlərinin böyük sistemini, inzibati prosedurların sadələşdirilməsi və s. nəzərdə tutur. Bu maliyyə mexanizmi, həmçinin milli valyutanın məzənnəsinin mövqelərinin bərkidilməsinə, onun dönərliliyinə, xarici investorların iştirakı ilə yaradılmış müəssisələr üçün asanlıqla alınmış gəlirləri konversiya etmək imkanına, ölkənin bank sisteminin inkişafına, prioritetli sferalara investisiya layihələri üçün dövlət kreditlərin verilməsinə təsir göstərir (Xankişiyev, 2015:238). Bu sənaye zonalarında xarici investorlar üçün güzəştlər sahəsində xarici ölkələrin müsbət təcrübəsinə söykənərək 5-7 illik vergi tətillərinin verilməsinin variantı müsbət təklif kimi qəbul edilir və bu hal xarici və ya yerli investorlara kapital qoyuluşu üçün əlavə stimullar vermiş olur.

Respublikamızda sürətli amortizasiya mexanizminin tətbiqi sahələri kimi ilk növbədə birgə xarici kapitallı qeyri-neft sektorunun emal sənayesində tətbiqi düşünülür ki, bu sahələrə əlavə kapital yatırımına öz müsbət təsirini verəcəkdir. Bu proses amortizasiya ayırmaları hesabına yeni pul fondları ilə təminatı əsaslandırır. 2015-cı ildə fəaliyyətdə olan xarici kapitallı şirkətlər mal, iş və xidmət həcmi 35% artaraq 31,6 mlrd manat təşkil edib. Bunun yalnız 14%-i birgə xarici kapitallı şirkətlərin payına düşür. Mədən sənayesində 100% xarici kapitallı 74 şirkət 19,8 mlrd manatlıq

məhsul istehsal edibdir (Bədəlov, Məhərrəmov, Qurbanov, 2003:86). Dövlətin cəlb etdiyi xarici maliyyə qoyuluşları ilə bağlı fəaliyyət bu təşkilat tərəfindən idarə olunmalıdır. Bu fəaliyyətin əsas məqsədi ölkələrdə yaradılmış investisiya mühitinin xarici investorlar tərəfindən düzgün və dəqiq qiymətləndirməkdə onlara köməklik göstərərək ölkəyə qoyulan vəsaitləri artırmaqa nail olmaqdır. Ölkəmizdə bu növdən olan fəaliyyətin təşkili ilə, yəni xarici və eyni zamanda daxili investorların ixrac potensialının yüksəldilməsi və onların fəaliyyətinin istiqamətləndirilməsi məsələləri ilə bağlı iqtisadi siyasət və fəaliyyət, eynilə investisiya fəaliyyətinin təşviqini bilavasitə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində yaradılmış AZPROMO təşkilatı və bu fəaliyyətin geniş platformaları üzərindən internet satışını Azexport internet portalı həyata keçirir. Azpromo Fondu xarici investorlar, yerli istehsalçılar və hökumət arasında körpü rolunu oynamaqla bir növ Azərbaycana xarici kapitalın cəlb olunmasında informator rolunu oynayır. Azexport.az-ın missiyası Azərbaycan mənşəli mallar haqqında məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün əlverişli platformanın yaradılmasıdır.

## Nəticə

Belə bir nəticəyə gəlirik ki, Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb olunması üçün büdcə-vergi haqqında qanunvericiliyin norma və prinsipləri daxilində fəaliyyəti qurulmalıdır. Xarici investorlara göstərilən xidmətlərin keyfiyyəti artırılmalı, onlara xidmətdə elektron xidmət keyfiyyətinin yüksəldilməsi və genişləndirilməsi, xarici kapitalın cəlb olunması, qorunması və təşfiqinə yönəldilmiş qanunvericilik aktlarının təkmilləşdirilməsi, ikitərəfli müqavilə hüquq bazasının genişlənməsi, xarici investorlara "vahid pəncərə" pirinsipi əsasında göstərilən xidmət növünün çoxaldılması zəruridir.

## Ədəbiyyat

1. Ələkbərov, Ə.Ə. (2005). Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu. Bakı, 54 s.
2. https://e-qanun.az/framework/119
3. "Azərbaycanın statistik göstəriciləri". (2015). Bakı.
4. https://www.taxes.gov.az/az/post/1944
5. Xankişiyev, B.A. (2012). "Büdcə təşkilatlarında uçot və hesabat". Bakı, 238 s.
6. Bədəlov, Ş.Ş., Məhərrəmov, R.B., Qurbanov, F.Ə. (2003). Büdcə sistemi. Bakı, 86 s.

**Rəyçi: i.ü.f.d. Sahib Əliyev**

Göndərildi: 24.08.2022 Qəbul edildi: 02.10.2022

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/14/24-26

**Günay Arif qızı Dadaşzadə**
Azərbaycan Dövlət Pedaqoji Kolleci
gunay_dadaszade@mail.ru

# X SİNİFDƏ "DÜZXƏTLİ DƏYİŞƏNSÜRƏTLİ HƏRƏKƏT. TƏCİL" MÖVZUSUNA DAİR ARAŞDIRMALARIN APARILMASI METODİKASI

**Xülasə**

Məqalədə fizika fənninin tədrisi zamanı bəzi mövzulara aid araşdırmaların aparılması metodikasından bəhs edilib. Burada "Düzxətli dəyişənsürətli hərəkət. Təcil" mövzusuna dair dərs nümunəsi verilmişdir. Mövzunun tədrisində iş vərəqlərindən istifadə edilmiş, həmçinin mövzunun tədrisində şagirdlərdə qrafik bacarıqların inkişafı üçün funksional asılıqların qurulmasının vacibliyi göstərilmişdir.

Tədqiqatda "Düzxətli dəyişənsürətli hərəkət. Təcil" mövzusunun daha asan mənimsənilməsində kompüter texnologiyasından istifadənin imkanları araşdırılmışdır.

***Açar sözlər***: *fizika, dəyişənsürətli hərəkət, müəllim, şagird, qrafik asılılıq*

**Gunay Arif Dadashzade**
Azerbaijan State Pedagogical College
gunay_dadaszade@mail.ru

## Research methodology on the subject "Rectilinear variable speed motion. Urgent" ın X class

**Abstract**

In the article, the methodology of researching some subjects during the teaching of physics was discussed. Here is an example of a lesson on the topic" Rectilinearvariable speed motion. Urgent". Worksheets were used in the teaching of the subject, and the importance of building functional dependencies for the development of graphic skills in students was shown in the teaching of the subject.

In the study, the possibilities of using computer technology in easier mastering of the topic "Rectilinear variable speed motion. Urgent" were investigated.

***Keywords***: *physics, variable-speed motion, teacher, student, graph dependence*

## Giriş

Son dövürlərdə ümumi orta təhsil məktəblərində şagirdlərin idrak maraqlarının, yaradıcı təfəkkürünün və müstəqil əqli iş bacarıqlarının inkişaf etdirilməsi problemləri aktualdır. Fizika fənninin tədrisi zamanı bütün bunlar nəzərə alınmalıdır.

Hər bir elm praktiki ehtiyac yarandıqda, konkret, xüsusi obyekt və tədqiqat predmeti müəyyən edildikdə meydana çıxır. Son illərdə şagirdlərin təkcə təhsil və tərbiyəsinə deyil, həm də onların inkişafına xüsusi diqqət yetirilir, ona görə də fizikanın tədrisi metodikasının predmeti fizikanın tədrisinin nəzəriyyəsi və praktikası kimi başa düşülməlidir.

Fizikanın tədrisi metodlarının öyrənilməsinin obyekti və predmeti fizika üzrə tədris prosesi, o cümlədən müəllim və şagirdlərin birgə fəaliyyəti, məqsədləri, məzmunu, metodları, tədris vasitələri, onun təşkili formalarıdır.

Müasir sosial-iqtisadi şəraitdə şagirdlərin idrak maraqlarının, yaradıcı təfəkkürünün və müstəqil əqli iş bacarıqlarının inkişaf etdirilməsi problemləri aktualdır. Bu baxımdan müəllim tez-tez özünə sual verməli olur ki, "Təhsil prosesi necə təşkil edilməlidir ki, şagird üçün hər bir dərs elmi kəşfə

oxşasın, bu onun üçün əhəmiyyət kəsb edirmi ?!" (1). Ümumiyyətlə, müəllimin qarşısında şagirdlərdə idrak maraqlarının inkişafı, müxtəlif fəaliyyət sahələrində problemləri müstəqil həll etmək bacarığı, tədqiqat bacarıqları üçün lazımi şərait yaratmaq vəzifəsi durur. Bundan əlavə, müəllim uşaqlarda fizikaya dair elmi bilikləri formalaşdırmalıdır.

Kinematika orta məktəb fizikası kursunda "Mexanika" bölməsinin öyrənilməsinə başlayır, bu mövzuda cisimlərin əsas hərəkət növləri bu hərəkətlərin xarakterik xüsusiyyətlərini müəyyən edən səbəblər nəzərə alınmadan öyrənilir. Məktəb fizikası kursunun digər mövzuları arasında kinematika xüsusi yer tutur. Əsas məktəbdə kinematik xüsusiyyətlər "Cisimlərin hərəkəti və qarşılıqlı təsiri", "Mexanik hadisələr" və ya "Cismlərin qarşılıqlı təsiri" bölməsində nəzərdən keçirilir. Hərəkətin təsviri trayektoriya boyunca maddi nöqtənin keçdiyi yoldan istifadə etməklə təqdim olunur (Detlaf, 1973:65).

Bunun üçün ilkin olaraq "mexaniki hərəkət", "maddi nöqtə", "trayektoriya", "yol" anlayışları nəzərdən keçirilir. Eyni zamanda, onlar bir cismin digərinə nisbətən hərəkətini nəzərə alaraq, keyfiyyət səviyyəsində hərəkətin nisbiliyi anlayışını formalaşdırmağa başlayırlar. Əsas məktəb fizikası kursunda əksər müəlliflər iki növ hərəkəti nəzərdən keçirirlər: düzxətli bərabərsürətli və dəyişənsürətli hərəkət. Bu hərəkət növlərini nəzərdən keçirərkən "sürət" anlayışı, onun tərif üsulu, sürətin ölçü vahidləri təqdim olunur. Sürət əvvəlcə skalyar kəmiyyət kimi daxil edilir, sonra isə ona istiqamət təyin edilir. Dəyişənsürətli hərəkəti öyrənərək, orta sürət anlayışı və onun təyini üsulu təqdim olunur.

Dəyişənsürətli hərəkət - bərabər zaman fasilələrində müxtəlif yerdəyişmələr icra edən cismin hərəkətidir. Belə hərəkəti xarakterizə etmək üçün orta sürət anlayışından istifadə olunur (Qocayev, 2011:65-70; Murquzov, Abdurazaqov, Əliyev, 2017:21-24). Apardığımız araşdırmaya əsasən "Düzxətli dəyişənsürətli hərəkət" mövzusuna aid dərs nümunəsi göstərək.

**Mövzu: Düzxətli dəyişənsürətli hərəkət**

Standart: 1.1.3. Mexaniki hərəkəti əlamətlərinə görə şərh edir.

1.1.4. Mexaniki hərəkətə dair müşahidələrini ümumiləşdirib təqdim edir.

**Təlim nəticələri:**

● Mexaniki hərəkəti əlamətlərinə görə fərqləndirir.

● Düzxətli dəyişənsürətli hərəkəti fərqləndirir.

İnteqrasiya: C – 2.1.3. , İnf. 1.2.3.

***İş forması:*** Böyük və kiçik qruplarla iş.

***İş üsulu:*** Müzakirə, beyin həmləsi.

***Resurslar:*** İş vərəqləri, şəkillər, proyektor, kompüter, CD

Dərsin gedişi ilk olaraq motivasiya , problemin qoyuluşu ilə başlayır. Müəllim proyektor vasitəsilə ekranda iki şəkil göstərir və şagirdlərə aşağıdakı sualla müraciət edir:

- ✓ Zaman keçdikcə motosikletin sürəti necə dəyişir?
- ✓ Bu halda zaman keçdikcə avtomobilin sürəti necə dəyişir?




**Şəkil 1.**



**Şəkil 2.**

Şagirdlər birinci halda motosikletin sürətinin artdığını, ikinci halda isə azaldığını söyləyirlər və müəllim hər iki halda bir saniyədə sürət nə qədər dəyişdiyini onlardan soruşur. Yekunda belə hərəkəti bərabərsürətli hərəkət adlandırmaq olarmı? – sualı ilə şagirdlərə müraciət edir. Tədqiqat sualı qoyulur: Vahid zamanda sürətin dəyişməsi necə təyin olunur?

Tədqiqatın aparılması zamanı şagirdləri dörd qrupa bölünür və hər qrupa işçi vərəq paylanılır. Müəllim tərəfindən hazırlanan bu işçi vərəqlərindən birini nümunə olaraq göstərək.

**İşçi vərəqi – 1**




**Şəkil 3.**

1. Avtomobilin başlanğıc sürəti $(P_0)$ nə qədərdir?
2. Avtomobilin son sürəti (P) nə qədərdir?
3. Sürətin dəyişməsinə nə qədər vaxt (t) sərf olunub?
4. Sürətin zamana görə dəyişməsini $\frac{P-P0}{t}$ ifadəsi ilə təyin edin.
5. Təyin etdiyiniz bu ifadə təcil (a) adlanır. Deməli təcil sürətin vahid zamanda dəyişməsinə bərabər olan kəmiyyətdir.
6. Təcilin vahidini təyin edin.

İnformasiya mübadiləsi olaraq hər qrupun lideri öz işini yazı taxtasından asır və təqdim edir. Şagirdlərin təqdimatından sonra cavablar sistemləşdirilir və diqqətlərini dərslikdəki mətnə yönəldilir (Murquzov, Abdurazaqov, Əliyev, 2017:49-51). Şagirdlərə dərslikdəki mövzuya uyğun tətbiqetmə üsulu ilə məsələni həll etməyi tapşırılır və dərslikdən ev tapşırıqları verilir. Qiymətləndirmə prsesində dərsin təlim nəticələrinə nail olmaq dərəcəsini bu meyarlar üzrə qiymətləndirilir: izahetmə, fərqləndirmə, tətbiqetmə. Mövzunun tədrisi zamanı funksional asılılıqların qrafik şəklində təsviri də şagirdlərdə maraq oyadır, belə ki, funksional asılılıqların qrafik şəklində təsviri onların həm təfəkkürünün inkişafı, həm də fiziki hadisə və qanunauyğunluqları daha ətraflı başa düşmələri üçün əvəzsiz vasitədir. Qrafiklər fiziki qanunauyğunluqların gedişini həndəsi şəkildə əyani surətdə açır. Qrafik fiziki prosesin baş verməsi dinamikasını və xarakterini aydın göstərməyə və ya fiziki kəmiyyətlərin bu və ya digər şərt daxilində dəyişməsini, fizikanın tədrisinin əyaniliyini artırmağa imkan verir və qrafik kəmiyyətlər arasında funksional asılılıqları öyrənməyə kömək edir (6). Hərəkət qrafiklərinin qurulması ilə fiziki hadisələrin faktiki kompüter modelləşdirməsini və eyni zamanda Excel elektron cədvəl mühitində işləməyi öyrənməyə başlamaq da məqsədəuyğundur.

## Nəticə

X sinifdə "Düzxətli dəyişən sürətli hərəkət. Təcil" mövzusunun tədrisi zamanı müəllim dərsə maraqlı motivasiya, problemin qoyuluşu ilə başlayır. Dərsin gedişi yeni texnologiyaların tətbiqi əsasında reallaşdırılır.

1. Şagirdlər təcili hesablamaq üçün lazım olan fiziki kəmiyyətləri təqdim olunmuş təsvir əsasında təyin etməyi bacarırlar.
2. Hərəkətin modelləşdirilməsi üzrə dərslərin aparılması metodikası əsasən şagirdlərin kompüterlə işləməyə hazırlıq səviyyəsi ilə müəyyən edilir. Mövzuların müasir texnologiyalara uyğun tədrisi şagirdlərdə dərsin asan mənimsənilməsinə kömək edir.

## Ədəbiyyat

1. https://moluch.ru/archive/269/61840/
2. Detlaf, A.A. i. dr. (1973). Kurs fiziki. Mekhanika. Moskva: Visshaya shkola, 384 s.
3. Qocayev, N.M. (2011). Ümumi fizika kursu. Mexanika. Bakı: Qafqaz Universiteti, s.65-70.
4. Murquzov, M., Abdurazaqov, R., Əliyev, R. (2017). Fizika-10. Dərslik. Bakı: Bakı nəşr, s.21-24.
5. Murquzov, M., Abdurazaqov, R., Əliyev, R. (2017). Fizika-10. Metodik vəsait. Bakı: Bakı nəşr, s.49-51.
6. https://urok.1sept.ru/articles/605328

**Rəyçi: p.ü.f.d. Dilbər Əliyeva**

Göndərildi: 25.08.2022 Qəbul edildi: 03.10.2022

## DƏQİQ ELMLƏR
## EXACT SCIENCES

DOI: https://doi.org/10.36719/2789-6919/14/27-29

**Ülviyyə Əhməd qızı Cəfərova**
ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
mammadova.1967@inbox.ru

# ELMİ-METODİKİ TƏDQİQATLARDA RİYAZİ ANALİZİN TƏDRİSİNİN QOYULUŞU

**Xülasə**

Ali məktəblərdə riyazi kursların tədrisi məsələləri 1971-ci ildən nəşrə başlamış, 1991-ci ildə nəşrini dayandırmış "Riyaziyyatdan elmi-metodik məqalələr məcmuəsi" jurnalının səhifələrində hərtərəfli və dərindən təhlil edilmişdir. Bu jurnallarda ali məktəblərdə riyaziyyatın tədrisi metodikasının ümumi məsələləri, riyaziyyatın tarixi, riyazi kursların proqramları, dərs vəsaitlərinə qoyulan tələbələr və s. problemlər dəfələrlə müzakirə edilmişdir. Məqalədə elmi metodik ədəbiyyatlarda riyazi analizin tədrisinin qoyulması problem təhlil edilərək tədqiqata cəlb edilir.

***Açar sözlər:*** *elmi-metodik ədəbiyyat, riyaziyyatın tədrisi, ali təhsil, dərs, tədqiqat*

**Ulviyya Ahmad Jafarova**
Azerbaijan State Pedagogical College under ASPU
mammadova.1967@inbox.ru

# Mathematical analysis in scientific-methodical research the setting of educatıon

**Abstract**

The issues of teaching mathematical courses in higher schools were comprehensively and deeply analyzed in the pages of the magazine "Collection of Scientific and Methodical Articles from Mathematics", which was published in 1971 and ceased publication in 1991. In these journals, general issues of mathematics teaching methodology in higher schools, history of mathematics, programs of mathematical courses, students included in textbooks, etc. problems have been discussed many times. In the article, the problem of teaching mathematical analysis in scientific methodical literature is analyzed and involved in research.

***Keywords:*** *scientific-methodical literature, teaching of mathematics, higher education, lesson, research*

## Giriş

2004-cü ildə nəşr edilən "Ali təhsildə riyaziyyat" jurnalında müxtəlif ölkələrdə riyazi təhsilin inkişafı, universitet riyazi təhsilinin əsas istiqamətləri, riyazi analiz fənninin tədrisinin müxtəlif məsələləri və s. əksini tapmışdır.

XX əsrin 70-ci illərindən başlayaraq Moskva Dövlət Pedaqoji İnstitutunun əməkdaşlarının təşəbbüsü ilə Pedaqoji İnstitutlarda riyaziyyat müəllimi hazırlığının aktual problemlərinə həsr olunmuş bir sıra elmi-praktik konfranslar keçirilmişdir. Həmin konfranslarda riyazi analizin tədrisi ilə bağlı müxtəlif məsələlər müzakirə olunmuşdur. Belə elmi praktik konfransların materiallarında göstərilir ki, riyazi analiz kursunun şərhi aşağıdakı tələbləri ödəməlidir:

– dünyagörüş formalaşdırmalı;
– məntiqilik və ciddilik gözlənilməli;
– məktəb proqramı ilə əlaqə yaradılmalı;
– anlayışların öyrənilməsinə müxtəlif yanaşmalar olmalı, şərh elmli və aydın olmalı;
– mühazirə ilə praktik məşğələ arasında əlaqə yaradılmalı;

– tarixi materiallarla fikir verilməli;

– fənlərarası əlaqə yaradılmalı və məsələlərin seçilməsinə diqqət edilməlidir (Koçetkov, Kaçetkova, 2009:78).

Elmi-praktik konfransların materiallarında birdəyişənli funksiyanın inteqral hesabının tədrisinə dair aşağıdakı üç tələbin formalaşdığı əsaslandırılır:

– riyaziyyat ixtisası üçün riyazi analiz kursu proqramında nəzərdə tutulan bütün məsələlər şərh edilməli;

– məktəb dərsliyində inteqrala aid məsələlər nəzərə alınmalı;

– məktəb riyaziyyatında yalnız formalaşdırılan təkliflər ciddi isbat edilməli.

Riyaziyyatçı metodistlər öz məruzələrində riyazi analiz kursunun quruluşunu şərh etmişlər. Onlar funksiya anlayışının cəbr kursunda verildiyini nəzərə çatdıraraq, riyazi analiz kursunda inikas anlayışını misallarla nümayiş etdirilməyin vacibliyini qeyd edirlər. Funksiya limitini tipoloji formada daxil etmək təklif olunur. Çoxdəyişənli funksiyanın diferensial hesabını metrik fəza anlayışının daxil edilməsi ilə başlamağı məqsədəuyğun hesab edirlər (Həsənov, Məmmədov, Rüstəmov, 1992:89).

Bəzi məruzələr riyazi analiz kursunda təriflərin təliminin priyomlarının formalaşdınlmasına həsr olunmuşdur. Pedaqoji institutlarda riyazi analiz kursunu tədris edərkən anlayışların formalaşdırılmasının bütün mərhələlərini nümayiş etdirmək lazımdır: şərhin əsaslandırılması, təriflərin daxil edilməsi, təriflərin mənimsədilməsi, əvvəllər öyrənilmiş anlayışlarla qarşılıqlı əlaqənin yaradılması, anlayışların öyrənilən mövzuda tətbiqi, anlayışların başqa bölmələrdə və fənlərdə tətbiqi (Məmmədov, 1999:89).

Elmi-praktik konfransların materiallarında riyazi analizdən praktik məşğələlərdə peşə bacarığının formalaşdınlmasını aşağıdakı şəkildə təsnif etmişlər:

1. Öyrənilən materialın tətbiqi ilə əlaqəli bacarıqlar;

2. Materialın mənimsənilməsi üçün zəruri olan tədris bacarıqları (isbatın, məsələlərin həllinin rasional yolunun tapılması, fəndaxili əlaqələrin varadılması, yeni materialın müstəqil öyrəniliməsi);

3. İlkin pedaqoji bacarıqlar (cavabların rəyləşdirilməsi, auditoriya qarşısında çıxış, lövhədə işləmək) Azərbaycanda da ali məktəblərdə riyazi fənlərin tədrisinin öyrənilməsi daim diqqət mərkəzindədir (Məmmədov, 2001:54).

Həmidovun doktorluq dissertasiyasında pedaqoji institutlarda gələcək ibtidai sinif müəllimlərinin riyazi hazırlığının peşə-pedaqoji istiqamətləri tədqiq olunmuşdur.

A.S.Adıgözəlovun dissertasiyası isə fasiləsiz təhsil şəraitində məktəb riyaziyyat kursunun tətbiqi funksiyanın fənlərarası əlaqələr əsasında reallaşdırılması probleminə həsr olunmuşdur (Həmidov, 1992:75).

Həmidov özünün namizədlik dissertasiyasında ilk dəfə ali pedaqoji məktəblərin riyaziyyat fakültəsi tələbələri üçün kompüterin öyrənilməsi metodikasını şərh etmişdir. Kompüteri öyrənməklə tələbələr dialoq prosesində psixoloji emosiyalardan azad olunur, onların idarəedici, xidmətedici, öyrədici informasiya və tədqiqatçılıq fəaliyyəti güclənir.

Azərbaycanın riyaziyyatçı pedaqoqlarından M.S.Cəbrayılov, Ə.M.Məmmədov, C.N.Süleymanov, T.M.Əliyeva, M.C.Mahmudov, S.A.Feyziyev, N.A.Əliyev, Q.R.Bəylərov və b. da hal-hazırda riyazi kursların tədrisi ilə bağlı maraqlı elmi-tədqiqat işi aparırlar.

Göründüyü kimi, yuxarıdakı tədqiqatların hamısı pedaqoji institutlarda (bir qismi texniki ali məktəblərdə) riyazi kursların öyrənilməsinə həsr edilmişdir.

Riyazi analizin tədrisi ilə bağlı tədqiqat materiallarını diqqətlə öyrənərək onları aşağıdakı istiqamətlərdə qruplaşdıra bilərik:

1. Riyazi analiz kursunun məzmununun təkmilləşdirilməsinə yönəldilmiş tədqiqatlar.
2. Tələbələrin təlim-tərbiyəsinin inkişaf etdirilməsinə yönəldilmiş tədqiqatlar.
3. Riyazi analiz kursu təliminin zənginləşdirilməsinə, praktik məşğələlərin təşkili texnikasının yaxşılaşdırılmasına xidmət edən tədqiqatlar.

Bu tədqiqatların əksəriyyətində riyazi analiz kursu proqramlarına və dərsliklərinə münasibət bildirilmiş, onların daha da təkmilləşdirilməsi təklif edilmişdir (Həsənov, Məmmədov, Əliyev, 1992:89).

Riyazi analiz kursunun tədrisinə dair gələcək istiqamətləri müəyyənləşdirmək məqsədilə bu sahəyə aid mövcud elmi, elmi-metodik işləri təhlil edərək aşağıdakı ümumi nəticəyə gəlmişik:

XX əsrin 50-ci illərindən başlayaraq riyazi analizin tədrisi metodikası daim olaraq eninə və dərininə inkişaf etmişdir. Bu kursun məzmununun, tədrisi metodlarının və vasitələrinin təkmilləşdirilməsi üçün dəyərli elmi təkliflər olmuşdur.

Riyazi analizin məzmununu təşkil edən anlayışlar, təkliflər, üsulların hər birinin tədrisindəki xüsusiyyətlər, spesifik cəhətlər dərindən öyrənilməlidir. Belə araşdırmaların nəticələrinə istinad etməklə həm riyazi analizin məzmununu genişləndirmək, həm də kursun tədrisinin həqiqi elmi yollarını tapmaq mümkün olar.

Tədqiqatlarda təfəkkürün inkişaf qanunauyğunluqlarını öyrənən digər elm sahələri fəlsəfə, idrak nəzəriyyəsi, məntiq, təlim psixologiyası ilə əlaqə zəifdir. Bu əlaqələrin xarakteri öyvənilməli, onların gücləndirilməsi əsasında riyazi analizin tədrisi metodikası yeni mərhələyə qaldırılmalıdır (Kazımov, 1999:89).

## Nəticə

Ali pedaqoji məktəblərdə riyazi kursların tədrisi metodikalarında milli irsin tarixinə münasibət, istinad yarıtmaz səviyyədədir. Nəsirəddin Tusi, Ömər Xəyyam və digər klassiklərin keçdikləri məktəblərdə riyazi elmlərin necə öyrədilməsi məsələsi qətiyyətlə araşdırılmalıdır. Son illərdə riyazi analizin tədrisi metodikası üzrə respublikada aparılmış tədqiqatların nəticələrindən ümumiləşdirilmiş təcrübədən istifadə etməklə yeni tədqiqat istiqamətləri açmaq mümkündür.

## Ədəbiyyat

1. Kochetkov, Y., Kachetkova, Y. (2009). Cəbr və elementar funksiyalar. II hissə. Orta məktəbin 10-cu sinfi üçün dərs vəsaiti. Bakı: Maarif, 298 s.
2. Həsənov, R., Məmmədov, H.Ə., Rüstəmov, İ.M. (1992). Ehtimal nəzəriyyəsinin elementləri. Bakı: ADPU, 69 s.
3. Məmmədov, H. (1999). Riyazi analizdən mühazirə dərslərində müasir riyaziyyatın simvollarından istifadə. Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş institutunun “Elmi əsərlər” bülleteni, № 8, s.9-13.
4. Məmmədov, H. (2001). Riyazi analizdən praktik məşğələlərin aparılmasına dair. Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmuəsi). Bakı: Nurlan, s.71-74.
5. Həmidov, S. (1992). Ali pedaqoji məktəb tələbələrinə kompüter öyrədilməsi metodikası: ped. elm. nam. dis. avtoref. Bakı, 25 s.
6. Həsənov, R., Məmmədov. H.Ə., Əliyev, S. (1992). Riyazi statistikanın elementləri. Bakı: ADPU, 55 s.
7. Kazımov, N. (1999). Ali məktəb pedaqogikası. Bakı: Nicat, 338 s.

**Rəyçi: t.ü.f.e.d. Rəşid Ələkbərov**

Göndərildi: 21.08.2022 Qəbul edildi: 27.09.2022

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Maarifə Nuh qızı Manafova**
Məhəmməd Yusif Şirvaninin "Tibbnamə" əsərinin üslubu .......................................................... 7
**Zeynəbxanım Vaqif qızı Ələkbərova**
Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsinin əhəmiyyəti ...................................................... 11
**Nuray Vidadi qızı Nəbiyeva**
Yaşamaq hüququ, bu hüquq ətrafında bəzi problemlər, yaşamaq hüququnun dövlətdaxili qanunvericilik və beynəlxalq aktlarda təsbiti ............................................................ 16
**Ayxan Afiq oğlu Zeynalov**
Azərbaycanın iqtisadiyyatına xarici kapitalın cəlb olunmasının büdcə-vergi mexanizminin qiymətləndirilməsi. ........................................................................... 21

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Günay Arif qızı Dadaşzadə**
X sinifdə "Düzxətli dəyişənsürətli hərəkət. Təcil" mövzusuna dair araşdırmaların aparılması metodikası. ......................................................................................... 24

## DƏQİQ ELMLƏR
## EXACT SCIENCES

**Ülviyyə Əhməd qızı Cəfərova**
Elmi-metodiki tədqiqatlarda riyazi analizin tədrisinin qoyuluşu .....................................................27

İmzalandı: 27.10.2022
Formatı: 60/84, 1/8
H/n həcmi: 3,875 ç.v.
Sifariş: 589

---

https://aem.az saytında çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu
məh.“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru

